Azərbaycan Milli Elmlər Akademiyası
Milli Azərbaycan Tarixi Muzeyi

# Bakının teatr həyatı

## *Kataloq*

Bakı – 2013

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin*
*“Azərbaycanda Milli Teatrın yaradılmasının 140 illiyi haqqında”*
*01 mart 2013-cü il tarixli sərəncamından irəli gələn*
*tədbirlər planına əsasən çap edilir*


| | |
|---|---|
| **Elmi redaktor:** | *akademik Nailə Vəlixanlı* |
| **Mətnin müəllifləri:** | *Nailə Vəlixanlı, Zərifə Dulayeva* |
| **Annotasiyalar:** | *Rəna Səfərova, Sevil Qazıyeva, Fikrət Bağırov, Əli Fərhadov, Nərmin Bağırova, Könül Manafova* |
| **Kataloqun hazırlanmasında iştirak etmişlər:** | *Mehriban Əliyeva, Ülviyyə Usubova, Bənövşə Salamova, Emin Dadaşov* |



**Bakının teatr həyatı. Kataloq.**
Bakı, “Ziya”, 2013. 212 s.


*Kataloqda Bakı teatrlarının tarixinə dair Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında qorunan eksponatlar təqdim olunur.*


ISBN 978-9952-8024-2-9

*Əgər Azərbaycan xalqı müsəlman Şərqində ilk dəfə, 1873-cü ildə, milli teatr yaratmış və dünya mədəniyyətinə, Avropa mədəniyyətinə qovuşmuşsa, bu xalqın nə qədər böyük mənəviyyatı var. O nə qədər böyük mədəniyyətə, nə qədər yüksək intellektə malikdir və onun nə qədər böyük daxili qüdrəti var.*

***Heydər ƏLİYEV***



Azərbaycanda teatr sənətinin kökləri qədim xalq ayinləri, bayramları və oyunlarına gedib çıxır. Tamaşa elementləri azərbaycanlıların xalq yaradıcılığının bir çox növlərində – uşaq oyunlarında, toy adətlərində, təqvim şənliklərində bu gün də qalmaqdadır. Bəzi xalq oyunları dialoqlardan, çalğı alətləri ilə müşayiət olunan nəğmələrdən ibarət əyləncəli süjetə malik kiçik səhnəcikləri, komediyaları xatırladır.

Milli teatrın yaranması XIX əsrin ikinci yarısına təsadüf edir. Həmin dövrdə Bakı Rusiya imperiyasının iri sənaye mərkəzinə çevrilmişdi. Bu geniş imperiyanın heç bir yaşayış məntəqəsi inkişaf sürətinə görə o zamanlar çox da böyük olmayan, lakin erkən orta əsrlərdən artıq məşhur olan bu şəhərlə müqayisə edilə bilməzdi. Demoqrafik sıçrayışı baxımından Bakı dünyanın Paris, London və Nyu-York kimi iri mərkəzlərini geridə qoymuşdu. Neft şəhərin zahiri simasını da dəyişdirmişdi. Bakı amfiteatrı genişləndikcə şəhərin neft sahibkarları və iş adamlarının saraylarının, tədris müəssisələrinin, passaj və iri mağazaların, otellərin və bankların yerləşdiyi mərkəz hissəsi formalaşır, bağ və bulvarlar salınırdı. Qədim İçərişəhəri əhatələyən qala divarları yeni dünyanı orta əsrlərdən ayıran səddə çevrilmişdi.

XIX əsrin ortalarında Azərbaycanın müxtəlif bölgələrində həvəskar teatr tamaşaları göstərilsə də milli teatrın yaranma tarixi 1873-cü ilin martın 10-u və aprelin 17-də Bakıda Mirzə Fətəli Axundzadənin “Lənkəran xanının vəziri” və “Hacı Qara” komediyalarının səhnəyə qoyuluşu ilə bağlıdır. Bakı realnı məktəbinin müəllimi Həsən bəy Zərdabinin və şagirdi Nəcəf bəy Vəzirovun təşəbbüsü, Əsgər ağa Adıgözəlovun (Gorani) yaxından iştirakı ilə şagirdlərin göstərdiyi bu tamaşalarla tarixinin ilk səhifələrini yazan Azərbaycan teatrı dövrün görkəmli ziyalılarının gərgin fəaliyyəti nəticəsində ölkənin mədəni həyatına yeni ab-hava gətirdi, milli teatrın yaranması üçün təkan oldu.

Bu dövrdə Bakıda ildırım sürətilə inşa edilən şirkətlər, kontorlar, birjalar və banklara nisbətən mədəni-kütləvi müəssisələrin tikintisi ləngiyirdi. Şəhərdə xüsusi konsert və teatr binalarının yoxluğu kəskin hiss olunurdu. Bu vəziyyət böyük maarifpərvər xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevdə Bakıya həqiqi teatr binası hədiyyə etmək fikrini oyadır. 1883-cü ildə o, binanın layihəsini təsdiq edilmək məqsədilə şəhər idarəsinə təqdim edir. Hacı teatrın tikintisi üçün özünün şəhərin mərkəzində, sahilyanı küçədə yerləşən iri taxıl anbarının yerini ayırır, inşa işlərinin icrasını texnoloq mühəndis Ferdinad Lemkulə həvalə edir. Lakin Tağıyev teatrının taleyi faciəli oldu: o bir neçə dəfə yanğına məruz qaldı. Bununla belə, hər dəfə yenidən bərpa edildikdə, o görünüşünü dəyişir, tamaşa zalının, səhnənin, foyenin quruluşu təkmilləşdirilirdi.

Həmin illər Azərbaycanın demokratik ziyalıları yalnız Bakıda deyil, Azərbaycanın digər şəhərlərində - Şuşada, Şəkidə, Lənkəranda, Naxçıvanda, eləcə də Tiflisdə və İrəvanda da ilk həvəskar tamaşalarını təşkil edirdilər. Bakı rus-tatar (Azərbaycan) məktəbinin müəllimi Həbib bəy Mahmudbəyovun həvəskarlar truppası 1895-ci il yanvarın 15-də Nəriman Nərimanovun “Nadanlıq” tamaşası ilə H. Z. Tağıyev teatrının böyük səhnəsinə çıxdı. “Artist” jurnalında (1895, №46) bu barədə deyilirdi: “Bakıda yerli müsəlman əhalisi arasında görünməmiş hadisə baş verdi”.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakı ölkənin təkcə sənaye mərkəzi kimi deyil, eləcə də mənəvi tələbatın günü-gündən daha yüksəldiyi mədəni mərkəz kimi tanınırdı. Bakılıların həyatına getdikcə daha çox nüfuz edən teatr öz pərəstişkarları sırasına demokratik ziyalıları, daha vacibi isə gəncləri cəlb edirdi. Bakı, teatrlar şəhərinə çevrilmişdi. Xarici ölkələrin, o cümlədən, Rusiyanın aktyor və musiqiçilərinin, teatr kollektivlərinin qastrolları bakılıların mədəni və mənəvi zövqlərinin formalaşmasına böyük təsir göstərirdi. Bakı və bakılılar rus səhnəsinin görkəmli ustalarını – Fyodor Şalyapini, Leonid Sobinovu, Mariya Komissarjevskayanı, Mariya Savinanı, Moskva İmperator Kiçik (Malı) Teatrının aktyorlarını, Qərbi Avropadan gəlmiş Lina Kavalyeri və digərlərinin ifalarını heyranlıqla qarşılayırdı. Qastrollara gələn aktyorların böyük səhnə istedadı həm də Azərbaycanın gənc həvəskar sənətçiləri üçün özünəməxsus peşəkarlıq məktəbi idi.

1896-cı ildə Həsən bəy Zərdabi “Birinci müsəlman dram truppası” adlı ilk peşəkar teatr kollektivini təşkil etdi. Truppanın 1897-ci il aprelin 14-də səhnələşdirdiyi ilk tamaşa M. F. Axundzadənin “Hacı Qara” pyesi oldu. İkinci truppanın meydana gəlməsi ilə bakılılar teatr kollektivləri ilə tez-tez görüşmək, milli dramaturgiyaya daha yaxından bələd olmaq, teatr sənətinə qovuşmaq imkanını əldə etdilər. Elə həmin il Bakıda ilk “Artistlər İttifaqı”, 1906-cı ildə Cahangir Zeynalovun rəhbərliyi ilə “Müsəlman dram artistləri şirkəti” yaradıldı.

XX əsrin əvvəllərində Azərbaycanın teatr qüvvələrini birləşdirmək, sabit, daimi kollektiv yaratmaq zərurəti yetişdi. Peşəkar Azərbaycan teatrının yaradılması yolunda ilk addım H.Mahmudbəyov və H. Zərdabi truppalarının yaradıcı qüvvələrinin birləşməsi oldu. Dram aktyorlarının daimi teatr truppasına Əbdürrəhim bəy Haqverdiyevin rəhbərlik etməsi yekdilliklə qərara alındı. 1901-ci il yanvarın 10-da Azərbaycan dram truppası birliyi özünün ilk tamaşasını – Ə. Haqverdiyevin “Dağılan tifaq” əsərini nümayiş etdirdi.

Geniş tamaşaçı rəğbətini qazanan teatr sənəti getdikcə daha da inkişaf edirdi. “Nicat”, “Səfa”, “Nəşri-maarif” və b. mədəni-maarif cəmiyyətləri nəzdində teatr bölmələri, “Balaxanı dram dərnəyi” adlanan fəhlə dram dərnəyi, yeni teatr truppaları təşkil olunmağa başladı.

Azərbaycan ziyalılarının teatra olan məhəbbəti, bu sənətə möhkəm bağlılıq milli teatr yaratmaq kimi nəcib bir qayəyə çevrilir. Hələ 1900-cü ildə Nəriman Nərimanov yazırdı: “Teatr böyüklər üçün məktəbdir. Həmin məktəbdə görmədiyimiz şeyləri və görüb diqqət etmədiyimiz əhvalatları görüb və eşidib, pis əməllərdən ibrət və yaxşı sifətlər əxz edirik: ağlımız üçün qida və ruhumuz üçün ləzzət alırıq”.

1908-ci il yanvarın 12-də afişalar bakılılara müsəlman səhnəsində ilk dəfə “Nicat” cəmiyyətinin teatr bölməsinin opera aktyorları və həvəskarlarının iştirakı ilə

"Leyli və Məcnun" operasının ifa ediləcəyini xəbər verdi. Bütün Şərqdə ilk opera yaradan, o zaman çox gənc, lakin çox istedadlı bəstəkar Üzeyir Hacıbəyli oldu. Operada ilk dəfə olaraq xalq musiqi janrları (muğam, mahnı və rəqslər) ahəngdar və simfonik tərtibatda səsləndi. "Leyli və Məcnun" əsəri opera sənətinin xalq özfəaliyyətindən professional səviyyəyədək keçdiyi yolu əyani əks etdirirdi. Bu amili xüsusi vurğulayan rus bəstəkarı Viktor Vinoqradov yazırdı: "Musiqi tarixində çətin ki, folklorun bəstəkar yaradıcılığınadək yüksəlməsinin belə əyani nümunəsi tapılsın".

İlk milli operanın yaranması XX əsrin əvvəllərində Azərbaycan peşəkar musiqili teatrının inkişafını nümayiş etdirdi, operanın ilk ifaçıları isə yeni, o vaxtadək mövcud olmayan milli opera məktəbinin baniləri oldu.

Azərbaycan teatr sənəti milli dramaturgiyanın banisi Mirzə Fətəli Axundzadə və onun istedadlı davamçıları Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Nəcəf bəy Vəzirov, Nəriman Nərimanov, Süleyman Sani Axundov, Sultan Məcid Qənizadə kimi dramaturqların yaradıcılığı əsasında, eləcə də səhnə ustalarından Cahangir Zeynalov, Hüseyn Ərəblinski, Sidqi Ruhulla, Mirzağa Əliyev, Hacıağa Abbasov, Hüseynqulu Sarabski, Murad Muradov, Əbülfət Vəli, Mir Mahmud Kazımovski, Məhəmməd bəy Əlvəndi, Ələkbər Süheyli, Abbas Mirzə Şərifzadə və onlarla başqalarının istedadı sayəsində inkişaf edirdi.

Yeni təşəkkül tapan Azərbaycan teatrında yaşanılan dövrdən irəli gələn çox mühüm milli aktrisa probleminin olması, qadın rollarının çox vaxt kişilər və ya Azərbaycan dilini yaxşı bilməyən qeyri-millətlərdən olan aktrisalar tərəfindən oynanılması, sözsüz ki, səhnəyə qoyulan əsərlərin keyfiyyətinə təsir göstərirdi. XX yüzilin ilk 20 ilində Azərbaycan teatrında çıxış edən qeyri-millətlərdən olan A.Mislavskaya, G.Mixaylova, N.Lizina, Ş.Stepanova, Alma xanım, Aleksandra və Yeva Olenskaya bacıları ilə yanaşı 1910-1918-ci illərdə Göyərçin xanım adı ilə ilk azərbaycanlı aktrisa Gövhər xanım Qazıyevanın hər cür maneə və çətinliklərə sinə gərərək səhnəyə gəlişi teatr tariximizdə yeni səhifənin başlanğıcı oldu.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması milli teatrın fəaliyyətini daha da canlandırdı. Azərbaycan milli azadlıq hərəkatının lideri Məhəmməd Əmin Rəsulzadənin sözləri ilə desək "az zamanda Azərbaycan sənəti avropavari bəstəkar, tragediya, komediya, opera və operetta aktyor və aktrisaları və ümid verən rəssamlara sahib olduğunu sübut etdi".

AXC Baş naziri Nəsib bəy Yusifbəyli 1919-cu il dekabrın 22-də parlament iclasında çıxış edərkən, hökumətin mövqeyini açıqlamış, teatr işini, musiqi və başqa bu kimi sahələri yaxşılaşdırmaqla ali incəsənətin çiçəklənməsi üçün çalışmağın vacibliyini qeyd etmişdir. Qanunvericilik aktları ilə teatr işinin xalq maarifi nazirinin səlahiyyətinə daxil edilməsi, teatr tamaşalarına qoyulan verginin 50 % azaldılması, Dövlət Teatrının təmirinə vəsait (366 605 rubl) ayırılması qərara alındı. Eyni zamanda teatr binası icarəyə verildikdə kirayə ödənişinin artırılması arzusu bildirildi. Teatrın repertuarına Azərbaycanın tarixi və milli-azadlıq mübarizəsi ilə bağlı yeni əsərlər daxil edildi. Cümhuriyyət dövründə "Hacıbəyov qardaşları truppası" fəaliyyətini bərpa etdi. Maarif Nazirliyinin 18 oktyabr 1918-ci il tarixli qərarı ilə Azərbaycan Dövlət Teatrı yaradıldı. Bu teatrın pərdələri ilk dəfə həmin ilin noyabr ayının 4-də Nəriman Nərimanovun "Nadir şah" faciəsinin tamaşası ilə açıldı. 1919-

cu il mövsümünü oktyabrın 24-də İsa bəy Aşurbəylinin "Azər-Baycan" pyesini səhnələşdirməklə açan teatr Nazirlər Şurasının həmin ilin 17 noyabr tarixli qərarı ilə Dövlət Türk Opera-Dram Teatrı adlandırıldı.

1919-cu il martın 7-də "Üzeyir və Zülfüqar Hacıbəyli qardaşları truppası" Azərbaycan Dövlət Teatrının səhnəsində Müslüm Maqomayevin "Şah İsmayıl" operasını tamaşaçılara təqdim etdi. "Azərbaycan" qəzetinin yazdığına görə, "ifaçılar yalnız xoş sözlərə layiqdir". Şah İsmayıl rolunda çıxış edən Hüseynqulu Sarabskinin oyunu həmişə olduğu kimi, xüsusilə nəzərə çarpırdı. "Segah"ı məharətlə oxuyan Gülzar rolunun ifaçısı Yeva xanım Olenskaya Hüseynqulu Sarabskinin layiqli tərəf müqabili idi. Şah Aslan surətini təcəssüm etdirən Hacıbaba Şərifov da maraqlı obraz yaratmışdı.

20-ci illərin əvvəlində Bakı şəhərinin fəaliyyətdə olan bütün truppalarını və həvəskar aktyorlarını bir araya gətirən Birləşmiş Dövlət Teatrı təşkil edildi. 1922-ci ildə həmin teatrdan ayrılan dram truppası Azərbaycan Dövlət Dram Teatrı adı ilə müstəqil teatra çevrildi. 1920-1930-cu illərdə teatr sənətinin inkişafında böyük xidmətlər göstərən ziyalıların mətbuatda çıxışları teatrın inkişaf perspektivlərinin müəyyənləşməsində, milli və dünya dramaturqlarının klassik irsinə düzgün münasibətin formalaşmasında mühüm rol oynamışdır. Həmin illərdə azərbaycanlı aktrisalar – Əzizə xanım Yusifzadə (Məmmədova) və onun qızı Sona xanım Yusifzadənin (Hacıyevanın), Asiyə xanım Rzazadənin, eləcə də Mərziyə xanım Davudovanın köhnə ənənələri sındıraraq səhnəyə çıxmaları Bakının teatr həyatında mühüm hadisə oldu.

Teatrın 20-30-cu illər uğurlarında Cəfər Cabbarlının dramaturq, rejissor və teatrşünas kimi fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. O, əsərləri ilə teatr mədəniyyətinin ümumi yüksəlişinə, səhnə sənətində yenilik, tərəqqi uğrunda mübarizəyə təsir göstərərək, teatrı yaşanan zamanla, Azərbaycan cəmiyyətinin həyatı ilə sıx bağlaya bildi.

30-cu illərin repressiyaları Azərbaycan teatrında da qanlı izini qoydu. Hüseyn Cavid, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb kimi dramaturq və aktyorlar həmin illərdə baş verən həyat faciəsinin qurbanı oldular. Yaranmış şərait hətta bir çox görkəmli aktyor və aktrisaların səhnədən uzaqlaşdırılmasına səbəb oldu.

1941-1945-ci illər müharibəsi Bakı teatrlarının repertuarını müəyyənləşdirir, səhnəyə qoyulan orijinal və tərcümə əsərləri düşmənlə rəşadətli mübarizəyə səsləyir, vətənə məhəbbət hissini vəsf edirdi. Teatr kollektivləri çox ağır şəraitdə çalışırdı: aktyorların çoxu cəbhədə döyüşürdü. Teatr aktyorlarının da daxil olduğu bədii briqadalar ön və arxa cəbhələrdə çıxış edərək həm döyüşçüləri, həm də zəhmətkeşləri yeni-yeni qələbələrə ruhlandırırdı.

İllər keçir, həyat yeni problemlər doğurur, bakılılar yeni hadisələri yaşamalı olurdular. Teatr yeni pyesləri tamaşaya qoymaqla, zəmanənin qəhrəmanını bütün mürəkkəbliyi və hərtərəfliyi ilə təqdim etməyə səy göstərir, həyatı bədii vasitələrlə əks etməyə çalışırdı.

Respublikamızın suverenlik və müstəqilliyinin əldə edildiyi, milli özünüdərkin, mənəviyyatın və vətənpərvərliyin daha da yüksəldiyi şəraitdə teatrın bu ali vəzifəsi daha da artır. Azərbaycan cəmiyyətinin hazırkı mərhələsində teatrın rolunu və əhəmiyyətini yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev "teatrın Azərbaycanda mədəniyyətin, milli ruhun inkişafında, xalqımızın milli dirçəlişində

və ümumiyyətlə, xalqımızın mədəni səviyyəsinin yüksəlməsində böyük rol oynadığını” xüsusi qeyd etmişdir.

***

Bu kataloqda Bakıda bu gün öz maraqlı təqdimatları ilə tamaşaçıları sevindirən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Musiqili Teatrı, Abdulla Şaiq adına Azərbaycan Kukla Teatrı, eləcə də müstəqillik illərində əsası qoyulan Bakı Bələdiyyə Teatrı (1992) və “Planet Parni iz Baku – KVN” (2000) teatrının fəaliyyətinə dair Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyalarında olan materiallar təqdim olunur. Bu kolleksiyalar ildən-ilə Bakı teatrlarına məxsus sənədli və maddi materiallarla daha da zənginləşdirilir. Həmin materiallar muzey fondlarında heç vaxt artıq yük qismində yatıb qalmır. Daim istifadədə olan bu eksponatlar neçə-neçə tamaşaçı nəslini maarifləndirən və mənən zənginləşdirən çoxsaylı ekspozisiya və sərgilərin əsasını təşkil edir, milli teatr sənətinin inkişafının və nailiyyətlərinin təbliğinə geniş şərait yaradır. Muzeydə ötən əsrin 20-ci illərində fəaliyyət göstərən “Teatr” şöbəsi artıq 1934-cü ildən şöbə müdiri Ağakərim Şərifovun başçılıq etdiyi müstəqil Teatr muzeyinə çevrilmişdi.

Hal-hazırda Muzeyin fondlarında qorunan müxtəlif fotoşəkillər, afişa və proqramlar milli teatrın yaradılmasında iştirak edən məşhur səhnə və teatr xadimləri ilə yanaşı adları bu gün çağdaş oxucu və tamaşaçıya az məlum olan, lakin Azərbaycan teatrının inkişafında əhəmiyyətli rol oynayan səhnə fədailərinin adlarını da açıqlayır. Bu proqram və afişalar teatrların repertuarını öyrənmək, həmin teatrların müxtəlif dövrlərdə dəqiq adlarını müəyyənləşdirmək, benefis və yubileylərin kimə və nə vaxt həsr olunduqlarını bilmək və s. baxımından da böyük maraq doğurur. Təqdim olunan materiallar arasında fotoşəkillərin, sənətkarlara məxsus şəxsi əşyaların olması isə müxtəlif məqamların işıqlandırılması ilə yanaşı şəxsi münasibətlərin açıqlanmasına da kömək edir.

Muzeydə qorunan və bu gün onun nadir eksponatları kimi qiymətləndirilən kolleksiyalar içərisində görkəmli mədəniyyət xadimlərinə məxsus kolleksiyalar xüsusi yer tutur. Bunlar aşağıdakılardır:

1. Hüseynqulu Sarabski, Azərbaycan SSR Xalq Artisti – 01.03.1966-cı ildə və oğlu Azər Sarabski tərəfindən 25.06.1984-cü ildə Muzeyə hədiyyə edilmişdir. 62 ədəd.
2. Sidqi Ruhulla, SSRİ Xalq Artisti – 1964-cü ildə ailəsi tərəfindən Muzeyə təqdim olunmuşdur. 38 ədəd.
3. Qurban Pirimov, Azərbaycan SSR Xalq Artisti – 1964-cü və 1967-ci illərdə Muzeyə ailəsi tərəfindən təqdim olunmuşdur. 37 ədəd.
4. Müslüm Maqomayev, bəstəkar – 1962-ci ildə ailəsi tərəfindən Muzeyə təqdim olunmuşdur. 384 ədəd.
5. Şövkət Məmmədova, SSRİ Xalq Artisti – 1980-ci və 2009-cu illərdə Muzeyə təqdim olunmuşdur. 72 ədəd.
6. İsmayıl Hidayətzadə, Azərbaycan SSR Xalq Artisti – 17.06.1964-cü və 09.02.1965-ci illərdə həyat yoldaşı Sultan xanım Atakişiyeva tərəfindən Muzeyə təqdim olunmuşdur. 30 ədəd.

7. Aleksandr Tuqanov, rejissor – 1962-ci ildə Muzeyə təqdim olunmuşdur. 53 ədəd.
8. Mərziyə Davudova, SSRİ Xalq Artisti – 1963-cü ildə ailəsi tərəfindən Muzeyə təqdim olunmuşdur. 21 ədəd.
9. Əli Qurbanov, Azərbaycan SSR Xalq Artisti – 1965-ci ildə ailəsi tərəfindən Muzeyə təqdim olunmuşdur. 33 ədəd.
10. Qəmər Almaszadə, SSRİ Xalq Artisti – 2009-cu ildə Muzeyə ailəsi tərəfindən təqdim olunmuşdur. 222 ədəd.
11. Ələsgər Ələkbərov, SSRİ Xalq Artisti – 1963-cü ildə ailəsi tərəfindən Muzeyə təqdim olunmuşdur. 46 ədəd.
12. Niyazi Tağızadə-Hacıbəyov, SSRİ Xalq Artisti – 1986-cı və 2001-ci illərdə Muzeyə təqdim olunmuşdur. 273 ədəd.
13. Lütfiyar İmanov, SSRİ Xalq Artisti – 2010-cu ildə Muzeyə ailəsi tərəfindən təqdim olunmuşdur. 68 ədəd.
14. Şəfiqə Axundova, Azərbaycan SSR Xalq Artisti – 1968-ci və 2012-ci illərdə Muzeyə təqdim olunmuşdur. 44 ədəd.
15. Lütfəli Abdullayev, Azərbaycan SSR Xalq artisti, SSRİ Dövlət Mükafatı laureatı – 2006-cı ildə ailəsi tərəfindən təqdim olunmuşdur. 17 ədəd.
16. Azərbaycan SSR Xalq artisti Bəhram Mansurov və atası Bakı Muğam məclisinin rəhbəri Məşədi Süleyman Mansurov – Bəhram Mansurov və oğlu Eldar Mansurov tərəfindən təqdim olunmuşdur. 19 ədəd.

Həmçinin Zülfüqar Hacıbəylinin, Cabbar Qaryağdının, Asəf Zeynallının, Məmmədəli Vəlixanlının, Qara Qarayevin, Süleyman Ələsgərovun, Rostislav Lopatkinin, Müslüm Maqomayevin (nəvə), Ulduz Rəfilinin və başqalarının materiallarından da istifadə olunmuşdur.

Muzey fondlarında saxlanılan zəngin material əsasında yaradılan “Bakının teatr tarixi” kataloqu yeddi bölmədə təqdim olunan 870 adda eksponatı əhatə edir. Bölmələrin hər biri ayrı-ayrı teatrların və XX əsrin əvvəlində fəaliyyət göstərən həvəskar teatr truppalarının materiallarını özündə birləşdirir.

Kataloqun sonunda muzeyin Sənədli mənbələr fondunda (SMF №DK 11762, №663/1) saxlanılan, Azərbaycan teatrının 50 illik yubileyi münasibətilə 1923-cü ildə yubiley komissiyası tərəfindən köhnə əlifba (ərəb qrafikası) ilə nəşr edilən “Azərbaycan türk teatrosunun müxtəsər tarixi. 1873-1923” kitabçasının transliterasiyası təqdim olunmuşdur.

Ümidvarıq ki, çox vaxt unikal xarakterli bu qiymətli material qədirbilən Azərbaycan tamaşaçısının çox da asan olmayan, uzun və şərəfli ömür yaşamış Azərbaycan teatrına sevgisini daha da artıracaq, bu sönməz ocağın fədailərinin adlarını əbədiləşdirəcəkdir.

Kataloqda aşağıdakı ixtisarlar qəbul olunub: SMF – Sənədli mənbələr fondu, HXƏF- Hədiyyələr və xatirə əşyaları fondu, EF – Etnoqrafiya fondu, SBF – Silahlar və bayraqlar fondu, KTFMF – Köməkçi tarixi fənn materialları fondu, SSRİ – Sovet Sosialist Respublikaları İttifaqı, SSR – Sovet Sosialist Respublikası, KP – Kommunist Partiyası, MK – Mərkəzi Komitə, LKGİ – Lenin Kommunist Gənclər İttifaqı.

# Milli teatrın təşəkkülü



1. **Fotoşəkil**. 1883-cü ildə H. Z. Tağıyevin vəsaiti ilə Bakıda tikilən ilk teatr binası. SMF № 2325/1

2. **Fotoşəkil**. H. Z. Tağıyevin teatrının tamaşa zalının ümumi görünüşü. SMF № 2325/2

3. **Fotoşəkil** (paspartu üzərində). Şair, naşir, publisist, aktyor Səməd Mənsur Kazımzadə. XX əsrin əvvəli. Ölçüsü: 9.5x14.1 sm. SMF № 359/21.

4. **Proqram**. H. Z. Tağıyevin teatrında Vera Komissarjevskayanın iştirakı ilə Aleksey Suvorinin "Sual" tamaşası. 13 dekabr 1903-cü il. Çəhrayı atlaz parçası üzərindədir. "Kaspi" qəzetinin mətbəəsində çap edilmişdir.

5. **Fotoşəkil** (paspartu üzərində). I rus-müsəlman qadın məktəbinin (H. Z. Tağıyevin qız məktəbinin) şagirdi Fatma xanım Hacınskaya dramaturq Səkinə xanım Axundzadənin "Elmin faydası" pyesində Sərvər bəy rolunda. 16 dekabr 1904-cü il. Ölçüsü: 7.4x15 sm. SMF № 1988/1.

6**. Fotoşəkil** (paspartu üzərində). Fatma xanım Hacınskaya. 1904-cü il. Ölçüsü: 10.5x16 sm. SMF № 1988/3.

7. **Fotoşəkil** (paspartu üzərində). Fatma xanım Hacınskaya. Başı və çiyinləri kəlağayı ilə örtülmüşdür. 1906-cı il. Ölçüsü: 6.5x11 sm. SMF 1988/4.

8. **Məramnamə.** "Nicat" Maarif Cəmiyyəti dram heyətinin Üzeyir və Ceyhun Hacıbəyov qardaşlarının librettosu əsasında musiqi müşayiətilə H. Z. Tağıyev teatrının səhnəsində qoyduqları məşhur ədib Molla Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsərinin ilk tamaşası. 12 yanvar 1908-ci il. Rejissoru Hüseyn Ərəblinski. Məcnun rolunda – Hüseynqulu Sarabski, Leyli rolunda – Əbdürrəhim Fərəcov. Musiqi dəstəsinə Qurban (Pirimov) başçılıq edirdi. Ümumi müdir: Vəli, məsul müdir: Bəşir bəy Aşurbəyov. SMF № 17/1.

9. **Fotoşəkil** (paspartu üzərində). Aktyor Hüseynqulu Sarabski. Arxasında H.Sarabskinin dostu Əli Terequlova xatirə yazısı var. 6 may 1908-ci il (rus dilində). Ölçüsü: 8.9x13.2 sm. SMF № 353/4.

10. **Fotosurət**. Zülfüqar, Üzeyir və Ceyhun Hacıbəyli qardaşları. 1908-ci il. Ölçüsü: 19x28 sm. SMF № 2017/23.

11. **Fotoşəkil** (paspartu üzərində). Azərbaycanın görkəmli səhnə ustası Hüseynqulu Sarabski "Leyli və Məcnun" operasında Məcnun rolunda. Arxasında H.Sarabskinin "əziz yoldaşım Rəhim Məlikova" xatirə yazısı var. Bakı, 25 may 1908-ci il (rus dilində). Ölçüsü: 8.8x13.4 sm. SMF № 378/30.

12. **Fotosurət**. Balaxanı teatr dərnəyində Hüseynqulu Rzayev – Sarabskinin iştirakı ilə yerli dram truppası müsəlman artistlərinin ifasında tamaşaya qoyulan “Cəhalət” pyesinin proqramı. 23 may 1908-ci il. Ölçüsü: 9x11.5 sm. HXƏF, № 2187.

13. **Afişa** (Azərbaycan və rus dillərində). Bakı müsəlman dram dəstəsinin Dənizçılər Məclisinin zalında səhnəyə qoyduğu Nəcəf bəy Vəzirovun “Müsibəti-Fəxrəddin” faciəsi. Rejissor: Hüseyn Ərəblinski. Rolları M. Abaszadə, M. Əlinski, Mirzağa Əliyev, Hacı bəy Axundov, Xəlil Hüseynov və b. ifa edirdi. 3 aprel 1909-cu il. SMF № 17/2.

14. **Fotoşəkil** (paspartu üzərində). XX əsrin əvvəlində fəaliyyət göstərmiş Azərbaycanın görkəmli səhnə ustası Hüseyn Ərəblinski. Arxasında H. Ərəblinskinin “yoldaşım  Rəhim bəy Məlikova” xatirə yazısı var. Bakı, 28 sentyabr 1909-cü il (rus dilində). Ölçüsü: 10.6x14.3 sm. SMF № 378/35.

15. **Afişa** (Azərbaycan və rus dillərində). “Nicat” Maarif Cəmiyyətinin müsəlman dram artistlərinin Nikitin qardaşları teatr-sirkində qurban bayramı münasibətilə səhnəyə qoyduğu Mirzə Fətəli Axundovun “Hacı Qara” komediyası. Baş rejissoru və rollardan birinin ifaçısı Qulamrza Şərifovdur. Tamaşada habelə xanımlar Mixaylova, Tamarina, cənablar Məhəmməd Əlvəndi, Mirzağa Əliyev, Əhməd Ağdamski, Hacıağa Abbasov, Vəli, Mehdi Hacınski, Həsənov, Cahangir Zeynalov, Səməd Mənsur Kazımov, Əhməd Qəmərlinski, Rəhimov (1), Rəhimov (2), Hüseynqulu Sarabski, Səlimbəyov, Hacıbaba Şərifov və b. iştirak edirdi. 11 dekabr 1909-cu il. SMF № 17/3.

16. **Məramnamə** (Azərbaycan və rus dillərində). «Nicat” Maarif Cəmiyyəti dram artistlərinin H. Z. Tağıyevin teatrında səhnəyə qoyduqları Vilyam Şekspirin “Otello (Venesiyalı ərəb)” pyesinin ilk tamaşası. Tərcüməsi Nəcəf bəy Vəzirovundur. Rejissoru və Otello rolunun ifaçısı – Hüseyn Ərəblinski, Yaqo rolunda – Məhəmməd Əlvəndi.  29 oktyabr 1910-cu il. SMF № 17/4.

17.**Afişa** (Azərbaycan və rus dillərində). “Nicat” Maarif Cəmiyyəti dram dəstəsinin H.Z.Tağıyevin təzə teatrında səhnəyə qoyduğu Yusif Talıbzadənin “Ərmənusə, Əmru bin As (Əmr bin Asın komandasında ərəblər ilə romanyalıların müharibəsi. İsgəndəriyyə və Misrin fəthi)” faciəsi. Rejissor: Qulamrza Şərifov. Rollarda – Hüseyn Ərəblinski, Məhəmməd Əlvəndi, Ələkbər Hüsenzadə, Əhməd Qəmərlinski, Səməd Mənsur Kazımov, Hüseynqulu Sarabski və b. 19 noyabr 1910-ci il. SMF № 17/5.

18. **Proqram.** H. Z. Tağıyevin “yenidən təmir olunan teatrında” 22 noyabr 1910-cu ildə Y. Boyarskinin rəhbərlik etdiyi dram aktyorları truppasının iştirakı ilə səhnəyə qoyulmuş Lev Tolstoyun “Maarifin səmərəsi” tamaşası. Tamaşa Müqəd-

dəs Nina məktəbinin aztəminatlı şagirdlərinin nəfinə qoyulmuşdur. Proqram ağ atlaz parça üzərində çap edilmişdir. L. Tolstoyun şəkli var. SMF № 345/1.

19. **Afişa** (Azərbaycan və rus dillərində). "Nicat" Maarif Cəmiyyəti dram artistlərinin H. Z. Tağıyev teatrında aktyor Cahangir Zeynalovun şərəfinə səhnəyə qoyduğu Mirzə Fətəli Axundzadənin "Vəziri-xani-Sərab" komediyası. 30 noyabr 1910-cu il. Rejissoru və Vəzir Mirzə Həbib rolunun ifaçısı C. Zeynalovdur. SMF № 17/6.

20. **Məramnamə** (Azərbaycan və rus dillərində). "Nicat" Maarif Cəmiyyəti dram artistlərinin 1910-cü il dekabrın 9-da müşaviri-həqiqi, general H. Z. Tağıyevin teatr binasının inşasının 30 illiyi münasibətilə səhnəyə qoyduğu Fridrix Şillerin "Qaçaqlar" faciəsinin son pərdəsi. Tərcüməçi: Mehdi Hacınski. Rolları Hüseyn Ərəblinski, Hacıbaba Şərifov, Ələkbər Hüseynzadə, Ağalar Gəraybəyov və b. ifa edirdi. Ardınca Üzeyir Hacıbəylinin "Ər və arvad " tamaşasının göstəriləcəyi xəbər verilir. Rollarda Hüseynqulu Sarabski, Əhməd Ağdamski, Hənifə Tanrıqulov, Mirzağa Əliyev, Ağalar Gəraybəyov çıxış edirdi. Hər iki tamaşanın rejissoru Hüseyn Ərəblinskidir. Dirijor: Üzeyir Hacıbəyov. Çəhrayı atlaz parça üzərində çap edilmişdir. SMF № 1286

21. **Fotoşəkil.** Bakı və Tiflis müsəlman aktyorlarından ibarət Zülfüqar Hacıbəylinin truppası İrəvana səfəri zamanı yerli ziyalılarla. Ortada – Göyərçin xanım Əliyeva, sol tərəfdən arxada – Zülfüqar Hacıbəyli, aşağıda sağdan birinci – Mirzağa Əliyev. 1911-ci il. Ölçüsü: 21.1x29.4 sm. SMF № 2054/3.

22. **Fotosurət**. Tiflis müsəlman teatr truppası. İkinci sırada sağdan birinci Göyərçin xanım Əliyeva. 1911-ci il. Ölçüsü: 13x18 sm. SMF № 229/69.

23. **Afişa** (Azərbaycan və rus dillərində). Müsəlman dram aktyorlarının Bakıdakı Nikitin qardaşları teatr-sirkində səhnələşdirdiyi Şəmsəddin Samibəyin "Gavəyi-ahəngər" tarixi faciəsi. 1 aprel 1911-ci il. Rejissoru Hüseyn Ərəblinski, Gavə rolunun ifaçısı Məhəmməd Əlvəndi. SMF № 17/7.

24. **Afişa** (Azərbaycan və rus dillərində). Müsəlman dram artistlərinin məşhur artist və baş rejissor Hüseyn Ərəblinskinin benefisində Nikitin teatr-sirkində səhnələşdirdiyi Vahid Lütfi Əli Muradzadənin "Nacı bəy fədakari-hürriyyət" tarixi faciəsinin ilk tamaşası. Təbdil edəni Dadaş Bünyadzadədir. 20 may 1911-ci il. Nacı bəy rolunun ifaçısı Hüseyn Ərəblinskidir. Digər rollarda: Məhəmməd Əlvəndi, Xanlar Haqverdiyev, Ələkbər Hüseynzadə, Əhməd Qəmərlinski, Səməd Mənsur Kazımov, Hüseynqulu Sarabski və b. Afişada Hüseyn Ərəblinskinin foto şəkilləri var. Müsəlman xanımları üçün xüsusi örtülü lojalar ayrılmışdır. SMF № 17/8.

25. **Məramnamə**. Müsəlman dram aktyorlarının 1911-ci il oktyabrın 7-də Dəniz Məclisinin səhnəsində tamaşaya qoyduğu Namiq Kəmalın "Bəxtsiz bala yaxud

məniyyət fədası" və İvan Turgenevin "Pulsuzluq" pyesləri. Rejissor: H. Ərəblinski. Rollarda Əhməd Qəmərlinski, Olenskaya, Hüseyn Ərəblinski, Xanlar Haqverdiyev, Mirzağa Əliyev və b. H. Ərəblinskinin şəkili var. Birinci pyes Səkinə Axundovanın təbdilində tamaşaya qoyulmuş, ikinci əsəri isə Ceyhun Hacıbəyov Azərbaycan dilinə tərcümə etmişdir. SMF № 17/9.

26.**Afişa** (Azərbaycan və rus dillərində). «Nicat" Maarif Cəmiyyəti dram artistlərinin 1911-ci il noyabrın 19-da Nikitin qardaşlarının teatr-sirkində səhnələşdirdiyi Mehdi Hacinskinin "Sultan Əbdüləzizin xəli" tamaşası. Rollarda: Cahangir Zeynalov, Hüseynağa Hacıbababəyov, Ələkbər Hüseynzadə, Xanlar Haqverdiyev, Abbas Mirzə Şərifzadə, Şirvanski (Hacı bəy Axundov), Mirzağa Əliyev, Səməd Mənsur Kazımov və b. SMF, № 17/10.

27. **Afişa** (Azərbaycan və rus dillərində). Müsəlman dram artistlərinin iştirakı ilə 1912-ci il fevralın 17-də H. Z. Tağıyev teatrında səhnəyə qoyulmuş Şəmsəddin Samibəyin "Gavəyi-ahəngər yaxud İranın əvvəlinci inqilabı" tarixi faciəsi. Rejissoru və Gavə rolunun ifaçısı Hüseyn Ərəblinskidir. Digər rollarda: Məhəmməd Əlvəndi, Xanlar Haqverdiyev, Ələkbər Hüseynzadə, Cahangir Zeynalov, Səməd Mənsur Kazımov, Hüseynqulu Sarabski və b. SMF, № 17/11.

28. **"Nicat"** cəmiyyəti məcmuəsinin bir vərəqi. Ü.Hacıbəylinin "Ər və arvad" operettasının librettosu dərc edilmişdir. 13 aprel 1912-ci il. SMF № 2097.

29. **Afişa.** Mayılov qardaşlarının Böyük teatrında M. Dımovanın və İmperator Aleksandr Teatrının aktyoru V. Petrovun iştirakı ilə səhnəyə qoyulmuş Herhardt Qauptmanın "Elqa" pyesi. 12 avqust 1912-ci il. SMF, № 2054/6.

30.**Məramnamə** (Azərbaycan və rus dillərində). "Nicat" Maarif Cəmiyyəti dram artistlərinin 1912-ci il sentyabrın 28-də Mayılov qardaşları teatrında səhnəyə qoyduğu Yusuf Talıbzadənin "Əmir Xalid ibn Valid, Şamın (Suriyanın) fəthi və ərəblərin Roma ilə müharibəsi" tarixi faciəsi. Rejissoru və Əmir Xalid rolunun ifaçısı Hüseyn Ərəblinski. Digər rollarda: Səməd Mənsur Kazımov, Hacıağa Abbasov, Məhəmməd Əlvəndi, Mirzağa Əliyev, Xəlil Hüseynov, Hüseynqulu Sarabski, Cəlil Bağdadbəyov, Ələkbər Hüseynzadə, Xanlar Haqverdiyev. SMF, № 17/12.

31.**Afişa** (Azərbaycan və rus dillərində). "Nicat" Maarif Cəmiyyəti dram artistlərinin H. Z. Tağıyev teatrında səhnəyə qoyduğu Fridrix Şillerin "Qaçaqlar" faciəsi. 12 oktyabr 1912-ci il. Baş rejissor və Frans Moor rolunun ifaçısı Hüseyn Ərəblinski, əsərin tərcüməçisi və Karl Moor surətinin ifaçısı Mehdi Hacınkidir. Digər rolların ifaçıları müfəssəl məramnamədə göstərilir. "Tamaşada 100 nəfərədək iştirakçı olacaq". SMF, № 380/34.

32. **Fotosurət.** Bakı Müsəlman opera truppası heyətinin tərkibi: Hüseynqulu Sarabski, Hənifə (Məmmədhənifə) Terequlov, Mirzə Muxtar Məmmədov, Nurməmməd Məmmədov, Məşədi Rəsul Göyçayski, Ələkbər Hüseynzadə, Xəlil Hüseynov. 1912-ci il. Ölçüsü: 8x11 sm. HXƏF, № 2189.

33. **Məramnamə.** "Nicat" Maarif Cəmiyyəti dram artistlərinin 1913-cü il fevralın 22-də Bakı Şəhər Ticarət Donanması Dənizçiləri Klubunda Romanovlar xanədanının 300 illiyi münasibətilə keçirdiyi "Mən ölmüşəm" (tərcüməçi Murad Muradov), Qulamrza Şərifovun "Molla Nəsrəddin" və İvan Turgenevin "Pulsuzluq" pyeslərindən ibarət vodevillər gecəsi. Rollarda: Cəlil Bağdadbəyov, Ələkbər Hüseynzadə, Əhməd Qəmərlinski, Mirzağa Əliyev və b. SMF № 17/13

34. **Məramnamə** (Azərbaycan və rus dillərində). "Nicat" Maarif Cəmiyyəti dram artistlərinin 1913-cü il martın 9-da Novruz bayramı münasibətilə H. Z. Tağıyevin teatrında keçirdiyi Henrix Heynenin "Əlmənsur" (tərcüməçi Mehdi Hacıbababəyov) və Qulamrza Şərifovun "Molla Nəsrəddin" pyeslərindən ibarət gecəsi. Rejissor: Hüseynqulu Sarabski. Rollarda: Şirvanski (Hacı bəy Axundov), Əlinskaya, Əhməd Qəmərlinski, Səməd Mənsur, Xəlil Hüseynov, Cəlil Bağdadbəyov, Ələkbər Hüseynzadə, Mirzə Muxtar Məmmədov və b. SMF № 17/14.

35. **Məramnamə** (Azərbaycan və rus dillərində). Müsəlman dram artistlərinin Mayılov qardaşları teatrında səhnələşdirdiyi Əbdürrəhim bəy Haqverdiyevin "Pəri Cadu" tamaşası. Bakı, 9 mart 1913-cü il.. Rejissoru və odunçu Qurban rolunun ifaçısı Hüseynqulu Sarabskidir. Digər rollarda: Əhməd Qəmərlinski, Ələkbər Hüseynzadə, Əhməd Ağdamski və b. SMF № 2054/4.

36. **Məramnamə.** "Nicat" Maarif Cəmiyyəti dram artistlərinin H. Z. Tağıyev teatrında səhnəyə qoyduğu "Pəri Cadu" pyesi. 3 may 1913-cü il. Müəllifi və rejissoru Xanlar Haqverdiyevdir. Rollarda: Əhməd Qəmərlinski, Ələkbər Hüseynzadə, Əhməd Ağdamski, Hüseynqulu Sarabski, Mirzə Muxtar Məmmədov və b. SMF № 17/16.

37. **Proqram** (rus dilində). "Nicat" Maarif Cəmiyyəti dram truppasının H. Z. Tağıyev teatrında səhnəyə qoyduğu "Pəri Cadu" tamaşası (rus dilində). Müəllifi və rejissoru Əbdürrəhim bəy Haqverdiyevdir. Rollarda: Əhməd Qəmərlinski, Ələkbər Hüseynzadə, Əhməd Ağdamski, Hüseynqulu Sarabski, Mirzə Muxtar Məmmədov və b. 3 may 1913-cü il. SMF № 17/15.

38. **Məramnamə** (Azərbaycan və rus dillərində). "Səfa" Maarif Cəmiyyətinin teatr heyəti artistlərinin Nikitin qardaşları teatr- sirkində Səməd Mənsurun nəfinə səhnələşdirdiyi Şəmsəddin Samibəyin "Əhdə vəfa və yaxud arnaudlar" faciəsi. Təbdil edəni Səməd Mənsurdur. Rejissoru və Zübeyr rolunun ifaçısı Cahangir Zeynalovdur. Digər rollarda: Ələkbər Süheyli, Natalya Lizina, Mehdi Hacınski və Səməd Mənsur. 28 mart 1914-cü il. S. Mənsurun şəkili var. SMF № 17/17.

39. **Vərəqə.** “Рампа и жизнь” teatr jurnalının Bakıdakı müxbiri Mehdi Hacınskiyə verilmişdir. Moskva, 2 oktyabr 1914-cü il. Redaksiyanın möhürü vurulmuşdur. Ölçüsü: 8.5x12.2 sm. SMF № 1978/1.

40. **Kitab.** Zülfüqar Hacıbəylinin “Evlikən subay” operettasının librettosu. “Sport Rekord” şirkətinin buraxdığı 6 qrammofon valına əlavə olunurdu. Bakı, Orucov qardaşlarının nəşriyyatı, 1914-cü il, 16 səhifə. SMF № 570/1.

41. **Afişa.** Pavel Amiraqonun rəhbərlik etdiyi Mayılov qardaşları teatrının Milad və yeni il bayramlarına həsr olunan repertuarı. Bakı, 26 dekabr 1914 – 9 yanvar 1915-ci il. Mükafata layiq görülmüş operettalar silsiləsi. Simfonik orkestr və balet heyətlərinin iştirakı ilə tamaşaya qoyulur. SMF № 281/20.

42. **Kitab**. Zülfüqar Hacıbəyli “Evlikən subay”. Bəstəkarın eyniadlı operettasının librettosudur. 1915-ci ildə nəşr edilmişdir (ərəb əlifbası ilə). SMF № 1020.

43. **Kitab.** Üzeyir Hacıbəyli. “Şah Abbas və Xurşidbanu”. Operanın librettosu müəllifinindir. Bakı, 1917-ci il. SMF № 1021.

44. **Nikah şəhadətnaməsi** № 261. Opera aktyoru, Şuşa sakini Cəlil Əmrah oğlu Bağdadbəyov və Elza Karlinqin izdivacı haqqında Bakı Yevangelist Lüteran kilsəsinin sənədi. 17 aprel 1917-ci il. SMF № 229/75.

45. **Fotoşəkil.** Üzeyir və Zülfüqar Hacıbəyli qardaşları truppasının aktyorları. Bakı, 1918-1919-cu ilin teatr mövsümü. Ölçüsü: 19.4x29.9 sm. HXƏF № 1154.

46. **Afişa.** İranın “Tərəqqi” Maarif Cəmiyyətinin “Sədayi-İran” qəzetinin nəfinə Mirzə Rza Vaizzadənin tərcümə etdiyi “Səyavuş” pyesi əsasında Azərbaycan Dövlət Teatrosunda (keçmiş Mayılov qardaşları teatrı) səhnəyə qoyulan tamaşa. Rejissoru və Səyavuş rolunun ifaçısı İsmayıl Hidayətzadədir. 4 mart 1919-cu il. SMF № 2087.

47. **Fotosurət**. Azərbaycan Xalq Cümhuriyyəti Xalq Maarifi Nazirliyinin Hacıbəyli qardaşları opera-operetta truppası direktorunun arenda (icarə) haqqı barədə 9749 saylı sorğusuna cavabı. 2 oktyabr 1919-cü il. Ölçüsü: 9x11 sm. HXƏF № 2188.

48. **Fotoşəkil.** Aktyor Mirzağa Əliyev. 1910-cu illər. Ölçüsü: 9x14 sm. SMF № 1022.

49. **Fotoşəkil.** Üzeyir və Zülfüqar Hacıbəyli qardaşları teatr truppasının aktyoru Əbülhəsən Anaplı. 1910-cu illər. Ölçüsü: 13x18 sm. HXƏF № 2190/10.

50. **Fotoşəkil.** Aktyor Əhməd Ağdamski. 1912-ci il. Ölçüsü: 6x10.5 sm. SMF № 2141.

51. **Fotoşəkil**. Hüseynqulu Sarabski Üzeyir Hacıbəylinin "Əsli və Kərəm" operasında Kərəm rolunda. Ölçüsü: 11.7x17.8 sm. SMF № 2175.

52. **Fotoaçıqca**. Hüseynqulu Sarabski Üzeyir Hacıbəylinin "Şah Abbas və Xurşidbanu" operasında Şah Abbas rolunda. 1920-ci ilədək. Ölçüsü: 12x17 sm. SMF № 1097/21.

53**. Qrammofon valı**. "Məşədi İbad". Musiqisi Üzeyir Hacıbəylinindir. Tar və kamançanın müşayiətilə Əsgər Qurbanov ifa edir. Riqa şəhərindəki "Qrammofon" məhdud məsuliyyətli cəmiyyətində istehsal olunmuşdur. EF № 5184.

54. **Proqram.** Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşları dram artistləri müdiriyyətinin 1919-cü il mayın 27-də Bakı Müsəlman Ziyalılar Cəmiyyətinin nəfinə Hökumət Teatrosunda səhnələşdirdiyi "Arşın mal alan" operettası. Rejissoru və Əsgər rolunun ifaçısı Hacıbaba Şərifovdur. Digər rollarda: Ələkbər Həsənzadə - Soltan bəy, Xəlil Hüseynov – Süleyman, Natalya Lizina – Cahan xala, Əbülhəsən Anaplı – Vəli, Məxfurə Yermakova – Gülçöhrə. Dirijor: Üzeyir Hacıbəyli. SMF № 1648.

55. **Afişa.** Zülfüqar və Üzeyir Hacıbəyli qardaşlarının dram artistləri müdiriyyətilə Azərbaycan Hökumət Teatrosunda 1919-cu il martın 7-də məşhur artist Hüseynqulu Sarabski və dirijor Müslüm Maqomayevin benefisinə tamaşaya qoyulan, düzülüşü Mirzə Qədir İsmayılzadənin, musiqisi M. Maqomayevin olan təzə "Şah İsmayıl" operası. Baş rejissoru Abbasmirzə Şərifzadə, rejissoru Hacıbaba Şərifov, dirijoru Müslüm Maqomayevdir. SMF № 2009.

56. **Proqram** (Azərbaycan və rus dillərində). Zülfüqar və Üzeyir Hacıbəyli qardaşlarının dram artistləri müdiriyyətilə Azərbaycan Hökumət Teatrosunda aktrisa Aleksandra Olenskayanın və məşhur rejissor, artist Hacıbaba Şərifovun (benefisinə) şərəfinə 1919-cu il aprelin 7-də səhnəyə qoyulan Müslüm Maqomayevin təzə "Şah İsmayıl" operası. Şah İsmayıl rolunda Hüseynqulu Sarabski. Digər rollarda: Hacıbaba Şərifov (eyni zamanda rejissor), Cəlil Bağdadbəyov, Xəlil Hüseynov, Aleksandra Olenskaya, Məmmədtağı Bağırov və b. Baş rejissor: Abbas Mirzə Şərifzadə. Dirijor: Müslüm Maqomayev. SMF № 2039.

57. **Afişa**. Azərbaycan Dövlət Teatrında 1919-cü il aprelin 9-da şəfqət bacılarının nəfinə səhnəyə qoyulan Şarl Tomanın "Minyon" tamaşası. Rollarda: Y. Boronkina, Y. Starostina, V. Berezin və b. Dirijor: B. Gess. Fəxri icraçılarından biri səhiyyə naziri Yevsey Gindes. SMF № 1319.

58. **Məramnamə**. Azərbaycan Dövlət Teatrosunda 1920-ci il fevralın 3-də aktrisa Aleksandra Olenskayanın şərəfinə tamaşaya qoyulan Müslüm bəy (Maqomayevin) "Şah İsmayıl" operası. Aslan şah – Hacıbaba Şərifzadə, Şah İsmayıl –

Hüseynqulu Sarabski, İbn Tahir – Abbas Mirzə Şərifzadə, Gülzar –Aleksandra Olenskaya, Əbu Həmzə – Rza Darablı. Fevralın 5-də Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar"; eyni gündə Cəfər Cabbarzadənin (Cabbarlının) "Trablis müharibəsi" və ayın 10-da Hüseynqulu Sarabskinin şərəfinə "Əsli və Kərəm" əsərlərinin təqdim ediləcəyi bildirilir. SMF № 2035/2

59. **Səhnə tacı**. Aktyor Sidqi Ruhulla 1916-cı ildə səhnələşdirilən Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" pyesində baş rolu ifa edərkən istifadə etmişdir. HXƏF № 5499.

60. **Möhür.** Azərbaycan Dövlət Teatro heyəti. Üzərində aypara və səkkizgüşəli ulduz təsvir edilmişdir. Sidqi Ruhullanın kolleksiyasından. KTFMF № 322.

61. **Möhür.** Düzbucaqlı bürünc lövhəyə bərkidilmiş rezin lövhəcik üzərində qabarıq hərflərlə rus dilində "Müsəlman aktyoru Sidqi Ruhulla" yazısı var. KTFMF № 315.

62. **Möhür**. Səkkizgüşəli mis lövhəcik üzərində qabarıq hərflərlə ərəb əlifbası ilə "Sidqi Ruhulla" yazılmışdır. KTFMF № 323.

63. **Əsa**. Hüseyn Ərəblinskinin Hüseynqulu Sarabskiyə hədiyyəsi. Tutacağı fil başı şəklindədir. HXƏF № 406.

64. **Qəzil.** Muline və güləbətin saplarla işlənmişdir. Hüseynqulu Sarabski Məcnun rolunu ifa edərkən istifadə etmişdir. HXƏF № 405.

65. **Çarıq**. Ağ rəngli dəridəndir, bağları göy rəngli yun sapdandır. Şair Mirzə Ələkbər Sabirin Hüseynqulu Sarabskiyə hədiyyəsi. HXƏF № 403.

66. **Köynək**. Ağ qalın bez parçasındandır. Qollarında qırmızı, qəhvəyi və yasəmən saplarla tikilmiş həndəsi və nəbati naxışları var. Hüseynqulu Sarabskiyə məxsus idi. HXƏF № 402.

67. **Araqçın**. Üzərində rəngli saplarla işlənmiş nəbati naxışlar və medalyonlardan ibarət təkəlduz tikmələri var. Hüseynqulu Sarabski Zülfüqar Hacıbəylinin "Aşıq Qərib" operasında baş rolu ifa edərkən istifadə edirdi. HXƏF № 404.

68. **Şamdan**. Bürünc. Fiqurludur. Oturacağı dördbucaqlıdır. Nəbati naxışlı çini kürənin üstündəki uşaq heykəlçiyinin əlində rozetka və ortasında bürünc odluq var. Hündürlüyü – 28 sm. Cahangir Zeynalovundur. EF №5429.

69. **Samovar.** Nikel. Armudı şəklindədir. Qabaq hissəsi nəbati naxışlıdır. Qulpunun tutacağı və lüləsi sümükdəndir. Cahangir Zeynalovundur. HXƏF № 5526.

70. **Məcməyi**. Nikel. Uzunsovdur, bir başı dördkünc, digəri isə yarımdairəvidir. Cahangir Zeynalovundur. HXƏF № 5527.

71. **Cam.** Nikel. Oturacaqlıdır, ağzı genişdir. Üzərində nəbati və həndəsi naxışlar var. Cahangir Zeynalovundur. HXƏF № 5528.

72. **Kitab.** Azərbaycan türk teatrosunun müxtəsər tarixçəsi. 1873-1923. Maarif Komissarlığı Nəşriyyatı. Bakı, 1923 (ərəb əlifbası ilə). Görkəmli yazıçı, teatr və dövlət xadimlərinin fotoşəkilləri var. SMF № 663/1.

73. **Kitab**. Azərbaycan türk teatrosunun müxtəsər tarixçəsi. Bakı, 1923 (ərəb əlifbası ilə). SMF № 3/2.

74. **Qayçı**. Kağız kəsmək üçün. XX əsrin əvvəli. Mehdi bəy Hacınskiyə məxsus olub. SBF № 2889.

75. **Mürəkkəbqabı**. Şəffaf şüşəli dördüzlü prizma şəklindədir. Qapağı tuncdandır. XX əsrin əvvəli. Mehdi bəy Hacınskiyə məxsus olub. Ölçüsü: 6x6x5 sm. Qapağı ilə birgə ümumi hündürlüyü 9 sm.SBF № 2890.

76. **Qrammofon**. Tarzən Qurban Pirimovun ifa etdiyi Azərbaycan havalarının qrammofon valına yazılması münasibətilə Varşavada ona hədiyyə edilmişdir. Qrammofonun altı dördbucaqlı qutu şəklindədir. EF № 5367.

77. **Fotoşəkil** (əsli və surəti). Qurban Pirimov gənc yaşlarında. Ölçüsü: 14x7.5; 17.5x11 sm. SMF № 1590.

78. **Arayış.** Bakıda türk səhnəsində fəaliyyətə başladığı vaxtdan (1886-cı ildən) 40 il ərzində opera tamaşalarında və konsertlərdə iştirak etmiş şərq musiqisinin ustası, tarzən Fərəc Rzayevə Türk opera və dram teatrlarının başçıları və tanınmış aktyorları tərəfindən verilmişdir. 21 noyabr 1926-cı il. İmzaları var. SMF № 541/16.





*1883-cü ildə Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə*
*Bakıda tikilən ilk teatr binası və onun səhnəsi.*
*XX əsrin əvvəli*



***Azərbaycanın görkəmli səhnə ustası Hüseyn Ərəblinski. Bakı, 28 oktyabr 1903-cü il***



***Fatma Hacınskaya Səkinə Axundzadənin "Elmin xeyri" pyesində Sərvər bəy rolunda. 16 dekabr 1904-cü il***



Городъ Баку.

Театръ Г. З. А. Тагiева

ПРОГРАММА

Театральн. секція мусульм. просвѣтительнаго О-ва „Ниджатъ"

Въ Субботу, 12-го Января 1908 года.

Оперными артистами театр. секціи о-ва „Ниджатъ"

при участіи любителей и подъ наблюденіемъ авторовъ

представлено будетъ:

въ первый разъ на мусульманской сценѣ

ОПЕРА

ЛЕЙЛИ и МЕДЖНУНЪ

Поэма Физули въ 5 дѣйст—6 карт.

передѣланная для сцены и переложенная на музыку

Бр. У. и Дж. Гаджибековыми.

Восточный оркестръ подъ управленіемъ Курбана

Дѣйствующія лица.

| | |
|---|---|
| Меджнунъ (Гейсъ), молодой знатный арабъ | Г-нъ Сарабскій |
| Абульгейсъ, отецъ Меджнуна | Г-нъ Мамедовъ |
| Уммильгейсъ, мать Меджнуна | Г-нъ Казимовъ |
| Лейли, возлюбленная Меджнуна | Г-нъ Фараджевъ |
| Фаттахъ, отецъ Лейли | Г-нъ Кенгерли |
| Уммильлейли, мать Лейли | Г-нъ Везировъ |
| Ибнъ Саламъ, богатый арабъ | Г-нъ Дагестани |
| Нофель, военоначальникъ | N N |
| Зейдъ, другъ Меджнуна | Г-нъ Кенгерли |
| Первый арабъ | Г-нъ Мамедовъ |
| Второй " | Г-нъ Сафаровъ |
| Третій " | Г-нъ Везировъ |
| Четвертый " | Г-нъ Исмаиловъ |
| Пятый " | Г-нъ Аліевъ |
| Шестой " | N N |
| Седьмой " | N N |

Дѣти, арабы и [illegible]

Суфлеръ А. Ризаевъ.

Начало ровно въ 8½ ч. вечера.

Общій распорядитель А. Вели.

Режиссеръ Арабинскій.

Отвѣтств. распор. Б.-б. Ашурбековъ.

Анонсъ: Слѣдующій спектакль 14 января, представлен будетъ „ГЯВЕ".

باكو — اولنجى — دفعه — شهرلده

اخشام تماشاسى

مرام نامه

ليلى و مجنون

*"Nicat" Maarif Cəmiyyətinin dram heyətinin Hacı Zeynalabdin Tağıyevin teatrında "müsəlman səhnəsində" ilk dəfə Məhəmməd Füzulinin əsəri əsasında tamaşaya qoyduğu Üzeyir və Ceyhun Hacıbəyli qardaşlarının musiqisi ilə "Leyli və Məcnun" operasının məramnaməsi.*
*12 yanvar 1908-ci il*



***Hüseynqulu Sarabski -***
***"Leyli və Məcnun" operasında***
***Məcnun rolunun ilk ifaçısı***




***Yuxarıdakı fotoşəkilin arxasında "Leyli və Məcnun"***
***operasında ilk dəfə çıxış etmiş Rzayev-Sarabskidən***
***dostu Əli Terequlova rus dilində xatirə yazısı verilmişdir.***
***Bakı. 6 may 1908-ci il***




***"Nicat" Müsəlman Maarif Cəmiyyəti dram truppasının qurban bayramı münasibətilə Nikitin qardaşlarının teatr-sirkində səhnələşdirdiyi Mirzə Fətəli Axundzadənin "Hacı Qara" tamaşasının afişası. 11 dekabr 1909-cu il***




***"Nicat" Müsəlman Maarif Cəmiyyəti dram truppasının H. Z. Tağıyevin təzə teatrında aktyor Cahangir Zeynalovun səhnə fəaliyyətinin 25 illiyi münasibətilə səhnələşdirdiyi Mirzə Fətəli Axundzadənin "Vəziri-xani Sərab" tamaşasının afişası. 30 noyabr 1910-cu il***




***Müsəlman dram aktyorlarının Hüseyn Ərəblinskinin benefisi münasibəti ilə Nikitin qardaşlarının teatr-sirkində tamaşaya qoyduğu Vahid Lütfi Muradzadənin "Nacı bəy fədakari hürriyyət" tamaşasının afişası. 20 may 1911-ci il***




***"Nicat" Maarif Cəmiyyəti dram artistlərinin H.Z.Tağıyevin teatrında Hüseyn Ərəblinskinin quruluşunda səhnəyə qoyduğu Fridrix Şillerin "Qaçaqlar" tamaşası. 12 oktyabr 1912-ci il***




***Mirzə Rza Vaizzadənin tərcümə etdiyi "Səyavuş" tamaşasının afişası. Azərbaycan Dövlət Teatrında İran Maarif Cəmiyyəti tərəfindən səhnəyə qoyulmuşdur. Rejissoru və Səyavuş rolunun ifaçısı İsmayıl Hidayətzadədir. Həmçinin Vaizzadə, xanım Natalya Lizina, xanım Yeva Olenskaya və b. iştirak edirlər. 4 mart 1919-cu il***



***Üzeyir və Zülfüqar Hacıbəyli qardaşlarının teatr truppası. 1918-1919-ci illər mövsümü. Yerdə oturublar: Hacıbaba Şərifov, Abbasmirzə Şərifzadə, Xəlil Hüseynov, Rəşidov, X.Bağdadbəyov. İkinci sırada, soldan Lizina, Sürəyya, Tanailidi, Hüseynova, Hüseynqulu Sarabski, Zülfüqar Hacıbəyli, Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Məxfurə Yermakova, Aleksandra və Yeva Olenskaya bacıları. Ayaqüstə: soldan Ə.Hüseynzadə, Sidqi Ruhulla və b.***




***Azərbaycan Hökumət Teatrında Üzeyir və Zülfüqar Hacıbəyli qardaşları truppasının ilk dəfə məşhur artist Hüseynqulu Sarabskinin və dirijor Müslümün (benefisinə) şərəfinə səhnəyə qoyduğu Müslüm Maqomayevin "Şah İsmayıl" operasının afişası. 7 mart 1919-cu il***


ПРАВИТЕЛЬСТВЕННЫЙ ТЕАТРЪ

ПРОГРАММА

ШАХЪ ИСМАИЛЪ

Начало ровно въ 7½ час. вечера

شاه اسماعیل

*Azərbaycan Hökumət Teatrında Aleksandra Olenskaya və Hacıbaba Şərifovun benefisi münasibətilə tamaşaya qoyulan Müslüm Maqomayevin "Şah İsmayıl" operasının proqramı. Aslan şah –Hacıbaba Şərifov, Gülzar – Aleksandra Olenskaya. Baş rejissor – Abbas Mirzə Şərifzadə. 7 aprel 1919-cu il*



***Azərbaycan Dövlət Teatrosu heyətinin möhürü.***
***1919-cu il***



***Sidqi Ruhullanın***
***Əbdürrəhim bəy Haqverdiyevin***
***“Ağa Məhəmməd şah Qacar”***
***pyesində Ağa Məhəmməd şah***
***Qacar rolunu ifa edərkən***
***istifadə etdiyi***
***səhnə tacı***

# Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı
# (Akademik Milli Dram Teatrı – AMDT)



79. **Fotoşəkil**. Azərbaycan teatr xadimlərinin bir qrupu: İsmayıl Hidayətzadə, Abbas Mirzə Şərifzadə, Bədurə Əfqanlı, Rza Əfqanlı. 1920-ci illər. Ölçüsü: 11,3x15 sm. SMF № 2087/7

80. **Fotoşəkil** (paspartu üzərində). Rza Təhmasib. Üzərində rus dilində "Bu şəkildə təsvir olunan Rizaqulu Abasqulu oğlu Təhməzbəyovdur. İrəvan quberniyası Naxçıvan qəzasının II sahəsinin pristavı" yazılmış, imza və möhürlə təsdiqlənmişdir. 1920-ci illər. Ölçüsü: 6,5x8,5 sm. SMF № 165/4

462. **Afişa** (fransız dilində). "Sovet baletinin ulduzları". M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrı balet truppasının Fransanın Monpelye şəhərinə qastrol səfəri. 20 dekabr 1974-cü il. Afişada teatr aktyorlarının imzaları var. SMF № 1958/4

463. **Proqram**. Yeni dramaturji, musiqili-xoreoqrafiya redaksiyasında "Yeddi gözəl" baleti. SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Qara Qarayevin anadan olmasının 60 illiyi münasibətilə dərc edilmişdir. Libretto müəllifləri: Nizaminin eyniadlı poemasının motivləri üzrə Yuri Slonimski, Rəfiqə Axundova və Maqsud Məmmədov. Dirijor: Azərbaycan SSR Əməkdar incəsənət xadimi Rauf Abdullayev. Quruluşçu rəssam: Azərbaycan SSR Xalq rəssamı Toğrul Nərimanbəyov. Rollarda: Bəhram – Azərbaycan SSR Əməkdar artisti Rafael Qriqoryan, Ayişə – Azərbaycan SSR Xalq artisti Tamilla Şirəliyeva. 1978-ci il. SMF № 570/14

464. **Proqram** (Azərbaycan, rus, ingilis dillərində). Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baleti. 16 səhifə. Bakı, 2001-ci il. SMF № 2177/11

465. **Proqram** (Azərbaycan, ingilis, rus dillərində). Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Coakkino Rossininin "Sevilya bərbəri" operasının premyerası. 2002-ci il. SMF № 2385

466. **Fotoşəkil.** Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasında Azərbaycan Respublikasının Xalq artisti Azər Zeynalov – Əsgər, Azərbaycan Respublikasının Əməkdar artisti Natəvan Növrəsli – Gülçöhrə rollarında. 1996-cı il. Ölçüsü: 15x21 sm. 1996-cı il. DK № 12188/1

467. **Fotoşəkil**. Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasında Azərbaycan Respublikasının Xalq artisti Yaşar Nuri – Soltan bəy, Azərbaycan Respublikasının Əməkdar artisti Natəvan Növrəsli – Gülçöhrə rollarında. 1996-cı il. Ölçüsü: 15x21 sm. DK №12188/2

468. **Fotoşəkil**. Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasında Azərbaycan Respublikasının Əməkdar artistləri Natəvan Növrəsli – Gülçöhrə, Gülyaz Məmmədova – Telli, Fidan Hacıyeva – Asya rollarında. Ölçüsü: 15x21 sm. 1996-cı il. DK №12188/3

469. **Fotoşəkil**. Jorj Bizenin "Karmen" operasında Sankt-Peterburq Mariinski Akademik Opera və Balet Teatrının solisti Regina Rüstəmova – Karmen rolunda. Ölçüsü: 10x15 sm. 1996-cı il. DK №12188/4

470. **Fotoşəkil**. Jorj Bizenin "Karmen" operasında Sankt-Peterburq Mariinski Akademik Opera və Balet Teatrının solisti Regina Rüstəmova – Karmen, Həsən Enami – Xoze rollarında. Ölçüsü: 10x15 sm. 1996-cı il. DK №12188/5

471. **Fotoşəkil**. Jorj Bizenin "Karmen" operasında Sankt-Peterburq Mariinski Akademik Opera və Balet Teatrının solisti Regina Rüstəmova – Karmen, Azərbaycan Respublikasının Əməkdar artisti Əvəz Abdullayev –Eskamilio rollarında. Ölçüsü: 10x15 sm. 1996-cı il. DK №12188/6

472. **Fotoşəkil**. Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletində Azərbaycan Respublikasının Əməkdar artisti Tamilla Məmmədova – Gülyanaq, Sankt-Peterburq Mariinski Akademik Opera və Balet Teatrının solisti Teymur Əsgərov – Polad rollarında. Ölçüsü: 10x15 sm. 1999-cu il. DK №12188/7

473. **Fotoşəkil**. Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletində Azərbaycan Respublikasının Əməkdar artisti Tamilla Məmmədova – Gülyanaq, Azərbaycan Respublikasının Əməkdar artisti Yuri Lobaçov – Cahangir xan rollarında. Ölçüsü: 10x15 sm. 1999-cu il. DK №12188/8

474. **Fotoşəkil**. Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" operettasında Azərbaycan Respublikasının xalq artisti Azər Zeynalov – Məşədi İbad, Azərbaycan Respublikasının Əməkdar artisti Gülüstan Əliyeva – xala, Azərbaycan Respublikasının Xalq artisti Şahlar Quliyev – Qoçu Əsgər, Azərbaycan Respublikasının Əməkdar artisti Bəhram Əliyev – Həsənqulu rollarında. 2006-cı il. Ölçüsü: 10x15 sm. 2006-cı il DK №12188/9

475. **Fotoşəkil**. Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" operettasında Azərbaycan Respublikasının Xalq artisti Azər Zeynalov – Məşədi İbad, Azərbaycan Respublikasının Əməkdar artisti Həsən Enami – Sərvər rollarında. Ölçüsü: 10x15 sm. 2006-cı il. DK №12188/10

476. **Fotoşəkil**. Cuzeppe Verdinin “Aida” operasında Azərbaycan Respublikasının xalq artisti Qərinə Kərimova – Aida, Azərbaycan Respublikasının Əməkdar artisti Fidan Hacıyeva – Amneris, Şahlar Quliyev – Ammonasro, Teymuraz Ququşvili (Gürcüstan) – Rademes rollarında. 2006-2007-ci illər. Ölçüsü: 10x15 sm. DK №12188/11

477. **Fotoşəkil**. Cuzeppe Verdinin “Aida” operasında Ukraynanın əməkdar artisti Viktoriya Çenskaya – Aida, Azərbaycan Respublikasının Əməkdar artisti Fidan Hacıyeva – Amneris rollarında. 2011-ci il. Ölçüsü: 10x15 sm. DK №12188/12

478. **Fotoşəkil**. Fikrət Əmirovun “Min bir gecə” baletində Azərbaycan Respublikasının Əməkdar artisti İslam İslamov – Şəhriyar, Azərbaycan Respublikasının Əməkdar artisti Rimma İsgəndərova – Şəhrizad rollarında. 2007-ci il. Ölçüsü: 15x22.5 sm. DK №12188/13

479. **Fotoşəkil**. Fikrət Əmirovun “Min bir gecə” baletində Azərbaycan Respublikasının Xalq artisti Kamilla Hüseynova – Nuridə rolunda. 2000-ci illər. Ölçüsü: 10x15 sm. DK №12188/14

480. **Fotoşəkil**. Qara Qarayevin “Yeddi gözəl” baletində Azərbaycan Respublikasının Əməkdar artisti İslam İslamov – Bəhram şah, Azərbaycan Respublikasının xalq artisti Kamilla Hüseynova – Gözəllər gözəli, Azərbaycan Respublikasının Əməkdar artisti Tamilla Məmmədzadə – Çin gözəli, Nigar İbrahimova – Hind gözəli, Azərbaycan Respublikasının Əməkdar artisti Alsu Gimadiyeva – Məğrib gözəli, Azərbaycan Respublikasının Əməkdar artisti Yelena Skomoroşenko – Slavyan gözəli, Olqa İlyinıx – Xarəzm gözəli, Emiliya Mençinskaya – Bizans gözəli rollarında. 2008-ci il. Ölçüsü: 13.5x21 sm. DK №12188/15

481. **Fotoşəkil**. Qara Qarayevin “Yeddi gözəl” baletində Azərbaycan Respublikasının Əməkdar artisti İslam İslamov – Bəhram şah, Azərbaycan Respublikasının Xalq artisti Kamilla Hüseynova – Gözəllər gözəli. 2008-ci il. Ölçüsü: 10x15sm. DK 12188/16

482. **Proqram**. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Üzeyir Hacıbəylinin “Koroğlu” operası. Tamaşa Azərbaycan vokal məktəbinin banisi Bülbülə ithaf olunur. Ramil Qasımov Koroğlu rolunda ilk dəfə. 2011-ci il (Azərbaycan, ingilis, rus dillərində). SMF № 2379

483. **Proqram** (Azərbaycan, ingilis, rus dillərində). Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” operettası. 2011-2012-ci il mövsümü. SMF № 2377

484. **Proqram** (Azərbaycan, ingilis, rus dillərində). Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində qoyulmuş Moris Ravelin “Bolero” və Nikolay Rimski-Korsakovun “Şəhrizad” baletləri. “Bolero” tamaşasının quruluşçu baletmeysteri Nikolya Mussen (Fransa). 2011-2012-ci il mövsümü. SMF № 2384

485. **Afişa**. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Cokkomo Puççininin "Toska" operası. Dirijor: Ukraynanın əməkdar artisti, Belarus Milli Akademik Opera və Balet teatrının baş dirijoru Viktor Ploskin. Tamaşada Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Solisti Çinarə Şirin, Gürcüstan Dövlət Akademik Opera və Balet teatrının solisti, Gürcüstanın Xalq artisti, Dövlət mükafatı və Vokalçıların Beynəlxalq müsabiqələrinin laureatı Teymuraz Ququşvili və Azərbaycan Respublikasının Əməkdar artisti Əvəz Abdullayev iştirak edirlər. 28 aprel 2012-ci il. SMF № 2391

486. **Afişa**. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Qara Qarayevin "Yeddi gözəl" baleti. Liberetto müəllifi Yana Temizdir. Quruluşçu baletmeyster: Estoniya Respublikasının əməkdar artisti, Estoniya Respublikasının Dövlət Mükafatı Laureatı Vasili Medvedyev. Quruluşçu rəssam: Dmitri Çerbadji (Rusiya). Kostyumlar üzrə rəssam: Azərbaycan Respublikasının Əməkdar rəssamı Tahir Tahirov. Dirijor: Azərbaycan Respublikasının Xalq artisti Cavanşir Cəfərov.Rollarda: Bəhram – Azərbaycan Respublikasının Əməkdar artisti Gülağa Mirzəyev, Gözəllər gözəli – Azərbaycan Respublikasının Xalq artisti Kamilla Hüseynova. 29 sentyabr 2012-ci il. SMF № 2390

487. **Afişa.** Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Fikrət Əmirovun "Min bir gecə" baleti. Libretto müəllifləri: Nailə Nəzirova, Maqsud və Rüstəm İbrahimbəyovlar. Quruluşçu baletmeyster: Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, SSRİ Dövlət mükafatı laureatı Nailə Nəzirova. Quruluşçu rəssam: Azərbaycan Respublikasının Xalq rəssamı, Dövlət Mükafatı Laureatı Toğrul Nərimanbəyov. Kostyumlar üzrə rəssam: Azərbaycan Respublikasının Əməkdar rəssamı Tahir Tahirov. Baletmeyster repetitorlar: Azərbaycan Respublikasının Xalq artisti, SSRİ Dövlət Mükafatı Laureatı Tamilla Şirəliyeva, Azərbaycan Respublikasının xalq artisti – Mədinə Əliyeva. Dirijor:Əyyub Quliyev. Rollarda: Şəhrizad – Azərbaycan Respublikasının Xalq artisti Kamilla Hüseynova. 24 noyabr 2012-ci il. SMF № 2388

488. **Proqram** (Azərbaycan, ingilis, rus dillərində). Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Üzeyir Hacıbəylinin "Koroğlu" operası. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubeleyinə həsr olunmuşdur. 2012-2013-cü il mövsümü. SMF № 2380

489. **Afişa**. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası. Quruluşçu rejissor: Azərbaycanın Əməkdar incəsənət xadimi Hafiz Quliyev. Quruluşçu rəssam: Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Əyyub Fətəliyev. Baletmeysterlər: "Qızıl Dərviş" Mükafatı laureatı Mədinə Əliyeva, Azərbaycan Respublikasının Xalq artisti Afaq Məlikova. Tama-

şanın dirijoru – Əyyub Quliyev. Rollarda: Əsgər – Fərid Əliyev, Gülçöhrə – Afaq Abbasova, Soltan bəy – Azərbaycan Respublikasının Xalq artisti Ramiz Əzizbəyli, Cahan xala – Kəmalə Nəsibova, Süleyman – Azərbaycan Respublikasının Xalq artisti Şahlar Quliyev, Asya – Azərbaycan Respublikasının Əməkdar artisti Səbinə Vahabzadə, Telli – Azərbaycan Respublikasının Əməkdar artisti Gülyaz Məmmədova, Vəli – Ələkbər Əliyev. 30 yanvar 2013-cü il. SMF № 2375

490. **Afişa**. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası. Quruluşçu rejissor: Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Hafiz Quliyev. Quruluşçu rəssam: Azərbaycan Respublikasının Xalq artisti, Dövlət Mükafati Laureatı – Rafiz İsmayılov. Baletmeyster: Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi – Yulana Əlikişizadə. Tarzən: Azərbaycan Respublikasının Əməkdar artistləri Elxan Mansurov və Elçin Həşimov, Kamançada Azərbaycan Respublikasının Əməkdar artisti Elnur Əhmədov. Dirijor: Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Sevil Hacıyeva. Rollarda: Leyli – Azərbaycan Respublikasının Əməkdar artisti Gülüstan Əliyeva, Məcnun – Azərbaycan Respublikasının Əməkdar artisti Səbuhi İbayev. 3 fevral 2013-cü il. SMF № 2373

491. **Afişa**. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" operası. Liberetto müəllifi – Zülfüqar Hacıbəyovdur. Quruluşçu rejissor: Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi – Hafiz Quliyev. Quruluşçu rəssam: Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Əyyub Fətəliyev. Rəqs səhnələri SSRİ Xalq artisti, SSRİ Dövlət Mükafatı Laureatı, baletmeyster Qəmər Almaszadənin quruluşunda verilir. Tarda Azərbaycan Respublikasının Əməkdar artisti Elxan Mansurov çalır.Dirijor: Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Sevil Hacıyeva. Rollarda: Aşıq Qərib – Azərbaycan Respublikasının Əməkdar artisti Səbuhi İbayev, Şahsənəm – Azərbaycan Respublikasının Əməkdar artisti Gülyaz Məmmədova. 8 fevral 2013-cü il. SMF № 2374

492. **Afişa**. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Lüdviq Minkusun Simfonik poeması əsasında tamaşaya qoyulmuş "Paxita" baleti. Rollarda: Nigar İbrahimova, Azərbaycan Respublikasının Xalq artistləri Rimma İsgəndərova, Gülağa Mirzəyev, Yelena Skomoroşenko və Makar Ferştandt. Quruluşçu baletmeyster: Azərbaycan Respublikasının Xalq artisti, SSRİ Dövlət Mükafatı Laureatı Tamilla Şirəliyeva, Quruluşçu rəssam: Azərbaycan Respublikasının Əməkdar rəssamı Tahir Tahirov. Afişada həmçinin Moris Ravelin "Bolero" baleti haqqında da məlumat verilir. Quruluşçu baletmeyster: Nikolya Mussen (Fransa), quruluşçu rəssam: Azərbaycan Respublikasının Əməkdar rəssamı Tahir Tahirov. Dirijor: Azərbaycan Respublikasının Xalq artisti Cavanşir Cəfərov. Baş baletmeyster Azərbaycan Respublikasının Xalq artisti, SSRİ Dövlət Mükafatı Laureatı Tamilla Şirəliyeva. 24 fevral 2013-cü il. SMF № 2387

493. **Afişa.** Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Cüzeppe Verdinin "Riqoletto" operası. Rollarda: Hersoq - Sankt-Peterburq Mariinsk Akademik Opera və Balet Teatrının solisti, Rusiya Federasiyasının Əməkdar artisti, Vokalçıların beynəlxalq müsabiqələrinin laureatı Mixail Latışev, Riqoletto - Azərbaycan Respublikasının Xalq artisti, Vokalçıların Bülbül adına III Beynəlxalq Müsabiqəsinin Laureatı Əvəz Abdullayev, Cilda - Azərbaycan Respublikasının Əməkdar artisti Gülnaz İsmayılova, Sparafuçile - Azərbaycan Respublikasının Xalq artisti, Vokalçıların Bülbül adına I Beynəlxalq Müsabiqəsinin "Qran Pri" mükafatçısı Əli Əsgərov, qraf Monterone - Anton Ferştandtın. Dirijor: Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Azad Əliyev. Tamaşanın dirijoru Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Kamil Sultanov. 9 mart 2013-cü il. SMF № 2389

494. **Afişa**. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Üzeyir Hacıbəylinin "Əsli və Kərəm" operası. Quruluşçu rejissor: Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi Hafiz Quliyev. Quruluşçu rəssam: Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Yusif Babayev. Baletmeyster: Azərbaycan Respublikasının Xalq artisti Mədinə Əliyeva. Tarda Azərbaycan Respublikasının Əməkdar artisti Elxan Mansurov çalır. Dirijor: Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Sevil Hacıyeva. Rollarda: Əsli – Vüsalə Musayeva, Kərəm – İlkin Əhmədov, Keşiş – Azərbaycan Respublikasının Xalq artisti Şahlar Quliyev. 14 mart 2013-cü il. SMF № 2372

495 **Proqram** (Azərbaycan, ingilis, rus dillərində). Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Vasif Adığözəlovun "Natəvan" operası. Quruluşçu rejissor: Özbəkistan Respublikasının xalq artisti Firudin Səfərov. 2013-2014-cü il mövsümü. SMF № 2383

496. **Proqram** (Azərbaycan, ingilis, rus dillərində). Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş Üzeyir Hacıbəylinin "Əsli və Kərəm" operasının premyerası. 2013-2014-cü il mövsümü. SMF № 2381

497.**Kitab** (rus dilində). Üzeyir Hacıbəyov. Azərbaycan xalq musiqisinin əsasları. Bakı, 1945. Azərbaycan Tarixi Muzeyinin kitabxanası № 5115

498. **Medal.** Üzeyir Hacıbəyov adına Azərbaycan SSR Dövlət mükafatı laureatı. KFMTF №606

499. **Barelyef.** Azərbaycan milli klassik musiqisinin banisi Üzeyir Hacıbəyli. Metal üzərində döymə üsulu ilə düzəldilmişdir. Ölçüsü: 38x45 sm. HXƏF № 4513

500. **Vaza.** Büllür, kobalt, şüşə. Üzərindəki dörd medalyonun birində Üzeyir Hacıbəyovun portreti, o birilərində "Koroğlu", "Leyli və Məcnun", "Arşın mal alan" operalarından səhnələr verilmişdir. Hündürlüyü 138 sm. Rəssam Səkinə Şahsuvarova eksklüziv olaraq Üzeyir Hacıbəylinin 70 illiyi münasibətilə hazırlamışdır. HXƏF № 703

## Azərbaycan SSR əməkdar incəsənət xadimi (1936), bəstəkar Müslüm Maqomayevin (1885 – 1937) kolleksiyasından

501. Azərbaycan Böyük Dövlət Teatrının blank-bloknotu. Teatrın direktoru Müslüm Maqomayevindir. 8 vərəq (Azərbaycan və rus dillərində). HXƏF № 1123

502. **Frak**. Qara mahuddandır. Dirijor Müslüm Maqomayevindir. HXƏF № 1186

503. **Dirijor çubuğu**. Müslüm Maqomayevindir. Ağac. HXƏF № 1187

504. **Dirijor çubuğu**. Ucları metaldandır, üzərində "Müslüm Maqomayev" yazısı var. Qara qutudadır. Qutuya vurulmuş metal lövhəciyə "Müəllim dostlarından əziz Maqomayevə" sözləri həkk edilmişdir.

## Azərbaycan SSR əməkdar incəsənət xadimi (1943) bəstəkar Zülfüqar Hacıbəylinin (1883 – 1950) kolleksiyasından

505. **Fotoşəkil**. Bəstəkar Zülfüqar Hacıbəyli. 1920-ci illər. Ölçüsü: 9x14 sm. SMF № 2187

506. **Fəxri fərman** № 69. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Zülfüqar Əbdülhüseyn oğlu Hacıbəyliyə Azərbaycan SSR Əməkdar incəsənət xadimi adının verilməsi haqqında. 27.02.1944-cü il. SMF № 555/16

507. **Tar**. Zülfüqar Hacıbəylinindir. HXƏF № 708

508. **Kamança**. Zülfüqar Hacıbəylinindir. EF № 1503

## Azərbaycan SSR xalq artisti (1932) Hüseynqulu Sarabskinin (1879 – 1945) kolleksiyasından

509. **Döş nişanı**. Azərbaycan Dövlət Opera və Balet Teatrının fəaliyyətinin 15 illiyi. Aktyor Hüseyn Sarabskiyə məxsusdur. 1935-ci il. KTFMF № 3

510. **Döş nişanı** "ÜİKTS". Aktyor Hüseynqulu Sarabskiyə məxsusdur. KTFMF № 9

511. **Proqram**. Azərbaycan SSR Xalq artisti H. Sarabskinin səhnə fəaliyyətinin 30 illiyinə (1903-1933-cü illər) həsr olunmuş yaradıcılıq gecəsi. HXƏF № 2169

512. **Vəsiqə**. Moskvada keçirilmiş Azərbaycan incəsənəti ongünlüyünün iştirakçısı Hüseynqulu Sarabskinindir. 1938-ci il. HXƏF № 2171

513. **Orden kitabçası** № 026695. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunan Hüseynqulu Sarabskiyə verilmişdir. 18 aprel 1938-ci il. HXƏF № 2173

514. **Tikmə**.Qəhvəyi rəngli sətin parça üzərində əl tikişi ilə “1928-ci ildə” tarixi və fars dilində “Leyli və Məcnun” poemasından misralar çəkilib. Nuxa (Şəki) zəhmətkeşlərinin Hüseynqulu Sarabskiyə hədiyyəsidir. HXƏF № 401

515. **Fotoşəkil**. Hüseynqulu Sarabski Azərbaycan operasının 30 illiyi münasibətilə çəkdirmişdir. 1939-cu il. Arxasında Şövkət Məmmədovaya xatirə yazısı var. Ölçüsü: 10.5x15.5 sm. SMF № 1973/17

**SSRİ xalq artisti (1938)**
**Şövkət Məmmədovanın (1897 – 1981) kolleksiyasından**

516. **Not**. Anton Eyhenvaldın “Çöl” operasından Şəfhətin birinci ariyası. Müəllifin Şövkət Məmmədovaya xatirə yazısı var. Leninqrad. 03.12.1938-ci il. Əlyazması, iki vərəqdə. SMF №1973/16

517. **Fəxri fərman**. SSRİ Xalq Komissarları Soveti nəzdində İncəsənət İşləri Komitəsi və SSRİ İncəsənət İşçiləri Həmkarlar İttifaqı Mərkəzi Komitəsi Böyük Vətən müharibəsi zamanı mədəni hamilik üzrə əla işinə görə Şövkət Məmmədovaya vermişdir. 1943-cü il. SMF № 1973/18

518. **Fotoşəkil**. Reynqold Qliyer kresloda. Üzərində Şövkət Məmmədovaya xatirə yazısı var. Leninqrad, 21.11.1953-cü il. Ölçüsü: 22x29 sm. SMF № 1973/20

519. **Səhnə pariki**. Şövkət Məmmədova Mixail Qlinkanın “İvan Susanin” operasında Antonida rolunda istifadə edirdi. HXƏF № 5330

520. **Səhnə yelpiyi**. Qara rəngdədir. Dəstəyi qəhvəvi plastmasdandır. Şövkət Məmmədova Cüzeppe Verdinin “Traviata” operasında Violetta rolunda istifadə edirdi. HXƏF № 5331

521. **Səhnə çantası** (redikül). Krem rəngindədir. Qıfılı sarı metaldandır. HXƏF № 5332

522-523. **Dabanlı səhnə ayaqqabısı** (2 cüt). Şövkət Məmmədovanındır. HXƏF № 5333, 5334

524. **Masaj aləti**. Ağ metal. Dəstəyi qara rəngli taxtadandır. Ş.Məmmədovanındır. EF № 9092

## Azərbaycan SSR xalq artisti (1931)
## Qurban Pirimovun (1880 – 1965) kolleksiyasından

525. **Afişa**. Dadaş Bünyadzadə adına Dövlət Türk Akademik Teatrosunda 1929-cu il aprelin 29-da keçirilmiş Qurban Pirimovun musiqi fəaliyyətinin 25 illiyinə həsr olunmuş yubiley gecəsi. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" və "Əsli və Kərəm" operalarından parçalar göstərilir. Rollarda: Hüseynqulu Sarabski, Sona Hacıyeva, Məmmədhəsən Atamalıbəyov, Hacıağa Hacıbababəyov, Hənifə Terequlov, Sürəyya Qacar. Rejissor: Abbas Mirzə Şərifov. Dirijor: Müslüm Maqomayev. SMF № 5384

526. **Proqram**. Qurban Pirimovun musiqi fəaliyyətinin 25 illiyinə (1904-1929) həsr olunmuş yubiley gecəsi. 29 aprel 1929-cu il. SMF № 160/1

527. **Proqram**. Qurban Pirimovun musiqi fəaliyyətinin 25 illiyinə həsr olunmuş yubiley gecəsi. Üzərində Aleksandır Tuqanovun avtoqrafı var. SMF № 160/2

528. **Fəxri fərman**. Qurban Pirimova Böyük Vətən müharibəsi zamanı əla mədəni hamilik işinə görə Fəhlə-Kəndli Qızıl Ordusu və Hərbi Dəniz Donanmasının 25 illiyi və İncəsənət işçiləri Həmkarlar İttifaqının Qızıl Ordu üzərində hamiliyinin 20 illiyi münasibətilə verilmişdir. 1943-cü il. SMF № 160/8

529. **Fotoşəkil**. Qurban Pirimov və xanəndə Cabbar Qaryağdıoğlu əsgərlər qarşısında çıxış edir. 1943-cü il. Ölçüsü: 13x9 sm. SMF № 1593

530. **Fərman**. Qurban Pirimova Böyük Vətən müharibəsi zamanı və sonrakı dövrdə fəal hərbi hamilik işinə görə Qələbə bayramı münasibətilə verilmişdir. 9 may 1946-cı il. SMF № 160/9

531. **Fotoşəkil**. Qurban Pirimov və bəstəkar Reynqold Qliyer. Bakı, 1955-ci il. Ölçüsü: 18x13 sm. SMF № 1589

532. **Fəxri fərman**. AHİŞ-in Rəyasət heyəti M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının 50 illiyi münasibətilə orkestrin solisti, respublikanın Xalq artisti Qurban Pirimova vermişdir. 9 iyun 1958-ci il. SMF №160/16

533. **Mənzum təbrik məktubu**. M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının kollektivi Q. Pirimova Azərbaycanın Xalq artisti adının verilməsi ilə əlaqədar göndərmişdir. 29 oktyabr 1955-ci il. 1 vərəq (Azərbaycan və rus dillərində). HXƏF № 160/13

534. **Proqram**. M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrında Azərbaycan SSR Xalq artisti Q. Pirimovun anadan olmasının 75, yaradıcılıq və ifaçılıq fəaliyyətinin 60 illiyinə həsr olunmuş gecə. 30 oktyabr 1955-ci il. SMF № 160/12

535. **Afişa**. M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrında keçirilmiş Qurban Pirimovun anadan olmasının 75 və yaradıcılığının 60 illiyinə həsr edilmiş gecə. 30 oktyabr 1955-ci il SMF № 1597.

536. **Kitab**. Əfrasiyab Bədəlbəyli. "Qurban Pirimov". Bakı, 1955. EF № 1595

537. **Kəmər**. Nazik dəri üzərinə 11 ədəd gümüş dördbucaqlı lövhələr taxılmışdır. Qurban Pirimova məxsusdur. HXƏF № 5434

538. **Arxalıq**. Qara rəngli atlaz parçadandır, qolsuzdur. Yuxarısında iki cərgə qara xırda düymələri var. Astarı qəhvəyi-ağ zolaqlı çit, kürək hissəsi qəhvəyi rəngli sətin parçadandır. Qurban Pirimovun kolleksiyasındandır. HXƏF № 5432

**SSRİ xalq artisti (1959), bəstəkar, dirijor Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyovun (1912 – 1984) kolleksiyasından**

539. **Vəsiqə** № 589. M. F. Axundov adına Azərbaycan SSR Böyük Dövlət Opera və Balet Teatrının dirijoru Niyaziyə verilmişdir. 01.10.1937-ci il. SMF № 555/3

540. **Vəsiqə**. Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyünün iştirakçısı Niyazi Zülfüqar oğlu Tağızadənindir. 1938-ci il. Ölçüsü: 7,5x11,5 sm. SMF № 555/5

541. **Fotoşəkil**. Niyazi və Bülbül. 1939-cu il. Ölçüsü: 10x15 sm. SMF № 2017/14

542. **Fəxri fərman** № 25. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti tərəfindən Niyazi Zülfüqar oğlu Tağızadəyə Azərbaycan SSR Əməkdar incəsənət xadimi adının verilməsi haqqında. 07.12.1940. Ölçüsü: 22,5x30 sm. SMF № 555/10

543. **Fəxri fərman** № 39. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti tərəfindən Niyazi Zülfüqar oğlu Tağızadəyə Azərbaycan SSR Xalq artisti adının verilməsi haqqında. 24.06.1955. Ölçüsü: 24x30 sm. SMF № 555/25

544. **Üzvlük bileti** № 1. Azərbaycan Teatr Cəmiyyətində bəstəkar və dirijor Niyazi Zülfüqaroviç Tağızadəyə verilmişdir. 01.01.1957. SMF № 555/24

545. **Gümüş nişan** № 573. "Azərbaycan Dövlət Opera və Balet Teatrının 50 illiyi". Niyaziyə məxsusdur. KTFMF № 646

546. **Fərman**. Niyazi Zülfüqaroviç Tağızadəyə SSRİ Xalq artisti adının verilməsi haqqında. 19.06.1959. SMF № 555/30

547. **Vəsiqə** № 1. Lenin ordenli M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının direktoru Niyazinindir. 1961-ci il. SMF № 555/35

548. **Diplom** № 1146. M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrında səhnəyə qoyulmuş "Gülşən" tamaşasına görə 1952-ci ildə II dərəcəli SSRİ Dövlət mükafatına layiq görülmüş Niyazi Tağızadəyə verilmişdir. 15 avqust 1962-ci il. SMF № 555/38

549. **Proqram**. SSRİ Xalq artisti, SSRİ və Azərbaycan SSR Dövlət mükafatları laureatı Niyazinin anadan olmasının 60 illiyinə və yaradıcılıq fəaliyyətinin 40 illiyinə həsr olunmuş təntənəli gecə. 1972-ci il. SMF №2017/27

550. **"Qırmızı Əmək bayrağı" ordeni** № 457644. Niyaziyə məxsusdur. 1967-ci il. KTFMF №645

551-553. **Üç medaldan ibarət dəst**. "Ü.Hacıbəyov adına Azərbaycan SSR Dövlət mükafatı laureatı". 1967-ci il, "SSRİ Dövlət mükafatı laureatı" № 2645. 1967-ci il, "SSRİ Dövlət mükafatı laureatı" № 2646. 1952-ci il. Niyaziyə məxsusdur. KTFMF № 652, 653, 654

554. **Lenin ordeni** № 458516. Niyaziyə məxsusdur.1976-cı il. KTFMF № 638

555. **Orden kitabçası**. № 719089. Sosialist Əməyi Qəhrəmanı Niyazi Zülfüqaroviç Tağızadə- Hacıbəyovun adınadır. 19 avqust 1982-ci il. KTFMF № 641

556. **"Oraq və çəkic" qızıl medalı**. N 20100. Sosialist Əməyi Qəhrəmanı adının verilməsi ilə əlaqədar Niyaziyə təqdim olunmuşdur. 1982-ci il. KTFMF № 639

557. **Lenin ordeni**. № 445178. Niyaziyə məxsusdur.1982-ci il. KTFMF № 640

558. **Vəsiqə** № 37212. Sosialist Əməyi Qəhrəmanı Tağızadə- Hacıbəyov Niyazi Zülfüqar oğlunun adınadır. 19 avqust 1982-ci il. KTFMF № 641

559. **Buklet**. "Niyazi". Müəllifi Sabir Kərimov. Bakı, 1978-ci il. Rus dilində. Ölçüsü: 21,5x21,5 sm. SMF №2017/50

560. **Fərman**. SSRİ Ali Soveti Rəyasət Heyəti tərəfindən Niyazi Zülfüqaroviç Tağızadə-Hacıbəyova Lenin Ordeni və "Oraq və Çəkic" qızıl medalı təqdim edilməklə Sosialist Əməyi Qəhrəmanı adının verilməsi haqqında. 19 avqust 1982-ci il. SMF № 555/62

561. **Proqram**. Bəstəkar və dirijor, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatları, Üzeyir Hacıbəyov adına respublika mükafatı və Cəvahirləl Nehru adına Beynəlxalq mükafat laureatı Niyazinin anadan olmasının 70 illiyi, yaradıcılıq və ictimai fəaliyyətinin 50 illiyinə həsr olunmuş yubiley gecəsi. 1982-ci il. SMF № 2017/37

562. **Dəvətnamə**. Niyazinin (Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyovun) anadan olmasının 70 illiyinə, yaradıcılıq və ictimai fəaliyyətinin 50 illiyinə həsr edilmiş təntənəli yubiley gecəsində iştirak etmək üçün verilmişdir. 17 mart 1983-cü il. SMF № 555/65

563. **Tar**. Qol hissəsi fil sümüyü və sədəflə işlənilmişdir. Qolun yuxarı hissəsində fil sümüyündən göyərçin təsviri var. Beş nazik və iki qalın sarı simi vardır. Metal lövhəcik üzərində rus dilində "Əziz Niyaziyə şuşalı həmyerlilərindən 70 illiyi münasibətilə" sözləri yazılmışdır. Uzunluğu 85 sm. HXƏF № 4894

564. **Səhnə geyimi - frak**. Qara mahuddandır. Türkiyənin "Əhməd" şirkətinin istehsalıdır. Niyazinindir. HXƏF № 4895/1

565. **Şalvar**. Qara mahuddandır. Yanlarına qara repsdən zolaqlar tikilmişdir. Niyazinindir. HXƏF № 4895/2

566. **Köynək ağ neylondandır**. Niyazinindir. HXƏF № 4895/3

567. **Kəmər**. Qara mahuddandır. Niyazinindir. HXƏF № 4895/4

568. **Büllur vaza**. Silindrik formadadır, kənarları qırçınlıdır. SSRİ Xalq artisti Müslüm Maqomayevin (nəvə) Niyaziyə anadan olmasının 70 illiyi münasibətilə hədiyyəsidir. Hünd. 34 sm. HXƏF № 4900

569. **Büllur vaza**. Açılmış zanbaq formasındadır. Kənarları qırçınlıdır. Lütfiyar İmanovun "Sevimli müəllim, böyük Niyaziyə anadan olmasının 60 illiyi münasibətilə" hədiyyəsidir. 29. XII. 1972 il. Hünd. 23 sm. HXƏF № 4908

570. **Qrammofon valı.** Niyazinin "Çitra" baleti. Mərkəzi Televiziya və Ümumittifaq Radiosu Böyük simfonik orkestrinin ifasında. HXƏF № 4919/1

571. **Qrammofon valı.** Üzeyir Hacıbəyovun "Arşın mal alan" musiqili komediyası. HXƏF № 4919/2

572. **Qrammofon valı.** Üzeyir Hacıbəyovun " Koroğlu" operası. HXƏF № 4919/3

573. **Qrammofon valı.** Azərbaycan musiqisi. Ü. Hacıbəyov adına Azərbaycan simfonik orkestrinin ifasında. Dirijor Niyazi. HXƏF № 4919/4

574. **Qrammofon valı.** Simfonik muğam. Mərkəzi Televiziya və Ümumittifaq Radiosu Böyük simfonik orkestrinin ifasında. HXƏF № 4919/5

575. **Qrammofon valı** dəsti. "Rast simfonik muğamı". Mərkəzi Televiziya və Ümumittifaq Radiosu Böyük simfonik orkestrinin ifasında. HXƏF № 4919/6

576. **Qrammofon valı** dəsti. “Çitra” baleti. Cildin içəri tərəfində Niyazinin avtoqrafı vardır. HXƏF № 4919/7

577. **Dirijor çubuğu**. Bambukdandır. Niyazinindir. Uzunluğu 45 sm-dir. HXƏF № 4912

578. **Dirijor çubuğu**. Qızıl. Üzərində rus dilində “Maestro Niyaziyə 60 illiyi günündə” yazısı həkk edilmişdir. 29.03.1972 ci il. XF № 216

**SSRİ xalq artisti (1959), prima balerina, baletmeyster Qəmər Almaszadənin (1915 – 2006) kolleksiyasından**

579. **Fotoşəkil**. Qəmər Almaszadə Bakı Xoreoqrafiya məktəbində şagirdləri ilə məşğələ aparır. 1930-40-cı illər. . Ölçüsü: 12.5x18 sm. SMF № 669/75

580. **Fəxri fərman**. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti tərəfindən Qəmər Almaszadəyə teatr sənəti sahəsində görkəmli fəaliyyətinə görə Azərbaycan SSR əməkdar artisti adının verilməsi haqqında. 10 iyul 1943-cü il. SMF № 669/159

581. **Fotoşəkil**. Qəmər Almaszadə. 1950-ci illər. Ölçüsü: 9x12 sm. SMF № 669/11

582. **Fəxri fərman**. Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Mərkəzi Komitəsi Rəyasət Heyətinin Qəmər Almaszadəyə sovet incəsənətinin inkişafında fəal işinə görə və M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının 50 illiyi münasibəti ilə vermişdir. 1958-ci il. SMF № 669/186

583**. Fotoşəkil**. Qəmər Almaszadə Bakı Xoreoqrafiya məktəbində məşğələ zamanı. 1962-ci il. Ölçüləri: 12x17.5 sm. SMF № 669/47

584. **Vəsiqə № 06245**. Qəmər Almaszadənin SSRİ Mədəniyyət Nazirliyinin 20 oktyabr 1976-cı il tarixli 907K №li əmri ilə təltif edildiyi “Əla işə görə” nişanının sənədi. Moskva, 28 oktyabr 1967-ci il. SMF № 669/168

585. **Şagird dəftəri**. Qəmər Almaszadənin Fikrət Əmirovun “Şur” simfonik muğamına yazdığı librettonun əlyazması. SMF № 669/204

586. **Fərman**. Azərbaycan LKGİ Nəsimi rayon komitəsi M. F. Axundov adına Opera və Balet Teatrının baş baletmeysteri Qəmər xanım Almaszadəyə balet truppasının yaradıcı hazırlığına və Parisdə keçirilən Beynəlxalq rəqs festivalında uğurlu çıxışına görə vermişdir. 13 mart 1970-ci il. SMF № 669/182

587. **Hökümət teleqramı**. SSRİ Böyük Teatrının 200 illiyi münasibətilə 1970-ci il mayın 23-26-da keçirilmiş tədbirlərdə iştirak etmək üçün Qəmər Almaszadəyə göndərilmişdir. SMF № 669/149

588. **Fotoşəkil**. Əfrasiyab Bədəlbəyli "Qız qalası" baletinin tamaşasından sonra. Baş rollarda Vladimir Pletnyov və Tamilla Şirəliyeva. Ölçüsü: 12x18 sm. 1977-ci il. SMF № 669/115

589. **Fotoşəkil**. Qəmər Almaszadə Bakı Xoreoqrafiya məktəbində məşğələ zamanı. 1977-ci il. Ölçüsü: 11.5x18 sm. SMF № 669/50

590. **Fotoşəkil**. M. F. Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş baletmeysteri SSRİ Xalq artisti Qəmər Almaszadə. 1980-ci illər. SMF № 669/14

591. **Fotoşəkil**. Qəmər Almaszadə Bakı Xoreoqrafiya məktəbindəki kursunun sonuncu buraxılışının məzun qızları ilə. 1980-ci il. Ölçüsü: 18x24 sm. SMF № 669/62

592-594. **Fotoşəkil**. Qəmər Almaszadə "Sonalar gölü" baletinin ilk tamaşasından sonra iştirakçılarla birlikdə səhnədə. Bakı, 28 dekabr 1980-ci il. Ölçüsü: 13x18 sm. SMF № 669/64

595. **Vəsiqə**. SSRİ Ali Soveti Rəyasət Heyətinin 9 iyun 1985-ci il tarixli fərmanı ilə SSRİ Xalq artisti fəxri adına layiq görülmüş Qəmər Almaszadənindir. 9 dekabr, 1985-ci il. SMF № 669/175

596. **Fəxri fərman.** SSRİ xalq artisti Qəmər Almaszadəyə uşaqların estetik tərbiyəsi sahəsində çoxillik və səmərəli işinə görə və Bakı Xoreoqrafiya məktəbinin ilk buraxılışının 50 illiyi münasibəti ilə verilmişdir. Bakı, 27 dekabr 1989-cu il. SMF № 669/185

597. **Fotoşəkil**. Qəmər Almaszadə Bakı Xoreoqrafiya məktəbindəki kursunun sonuncu buraxılışının məzun qızları ilə. 1990-cı il. Ölçüsü: 18x24 sm. SMF № 669/66

598. **Fotoşəkil**. Qəmər Almaszadə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə. 1990-cı illər. Rənglidir. Ölçüsü: 15x21.5 sm. SMF № 669/41

599. **Vəsiqə**. Qəmər Almaszadəyə verilmiş 009 saylı "Teatr xadimi" medalının sənədi. 10 mart 2005-ci il. SMF № 669/179

600. **Portret**. Qəmər Almaszadə. Yağlı boya. Kətan. Müəllifi naməlumdur. Ölçüsü: 69x69 sm. TMF № 536

601. **Balet ayaqqabıları** (puant). Çəhrayı rəngli atlaz parçadandır. Q. Almaszadə birinin içində öz əli ilə "Qəmər" yazmışdır. HXƏF № 5298

602. **Səhnə libası** (xiton). Açıq yaşıl rəngdədir. Qəmər Almaszadənindir. HXƏF № 5299

603. **Balet ətəyi** (paçka). Ağ rəngdədir, üzəri mavi çiçəklər və qara-ağ parıltılı piləklərlə bəzədilmişdir. Qəmər Almaszadənindir. HXƏF № 5300

604. **Saç bəzəyi**. Qəmər Almaszadə "Qu gölü" baletində Odetta rolunda istifadə etmişdir. Ağ lələklərdəndir. HXƏF № 5301

605. **Saç bəzəyi**. Qəmər Almaszadə "Qu gölü" baletində Odilliya rolunda istifadə etmişdir. Qara lələklərdən düzəldilmiş, ortasına qara sancaq taxılmışdır. HXƏF № 5302

606. **Qırmızı Əmək Bayrağı ordeni** № 2510. Qəmər Almaszadənindir. KTFMF № 838

607. **Oktyabr İnqilabı ordeni** № 48212. Qəmər Almaszadənindir. KTFMF № 840

608. **Qırmızı Əmək Bayrağı ordeni** №1046374. Qəmər Almaszadənindir. KTFMF № 844

609. **Xalqlar Dostluğu ordeni** №40772. Qəmər Almaszadənindir. KTFMF № 842

610. **Medal** №2629. II dərəcəli SSRİ Dövlət mükafatı laureatı Qəmər Almaszadənindir. KTFMF № 846

### SSRİ xalq artisti (1977), Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti Lütfiyar İmanovun (1929 – 2008) kolleksiyasından

611. **Proqram**. "Koroğlu" operasının müfəssəl məzmunu ilə 1959-cu ildə Moskvada keçirilən Azərbaycan incəsənəti və ədəbiyyatı münasibətilə buraxılmışdır. SMF № 685/46

612. **Fotoşəkil**. Lütfiyar İmanov Ramiz Mustafayevin "Vaqif" operasında baş rolda. 1960-cı il. Ölçüsü: 11,5x17,5 sm. SMF № 685/25

613-614. **Fotoşəkil**. Lütfiyar İmanov Rucero Leonkovallonun "Təlxəklər" operasında Pepe-Arlekin rolunda. Bakı, 1960-cı il. Ölçüsü: 9x14 sm. SMF № 685/21

615. **Fotoşəkil**. Lütfiyar İmanov və Firuzə Muradova "Koroğlu" operasında Koroğlu və Nigar rollarında. 1962-cı il.Ölçüsü: 12x18 sm. SMF № 685/26

616-617. **Fotoşəkil** (2 ədəd). Lütfiyar İmanov"Koroğlu" operasında baş rolda. 1962-cı il. Ölçüsü: 10x15 sm. SMF № 685

618. **Fotoşəkil**. Cahangir Cahangirovun "Azad" operasında Lütfiyar İmanov - Ayaz, Qafar Əliyev - Saranın atası rollarında. 1962-ci il. Ölçüsü: 15x20 sm. SMF №685/32

619. **Fotoşəkil**. Opera müğənnisi Lütfiyar İmanov. 1968-ci il. Ölçüsü: 15x19 sm. SMF № 685/1

620. **Fotoşəkil**. Lütfiyar Imanov, Müslüm Maqomayev (nəvə), Tofiq Quliyev və başqaları. Ölçüsü: 13x19.5 sm. 1970-ci illər.SMF № 685/4

621. **Fotoşəkil**. Lütfiyar İmanov "Karmen" operasında Xoze rolunda. 1970-ci illər. Ölçüsü: 15x20 sm. SMF № 685/16

622. **Afişa**. Azərbaycan SSR Əməkdar artisti Lütfiyar İmanov Odessa Dövlət Opera və Balet Teatrında qastrol səfərində olarkən ifa etdiyi Jorj Bizenin "Karmen" və Şarl Qunonun "Faust" tamaşalarında Xoze və Faust rollarında. 1970-ci illər. SMF № 685/49

623. **Afişa**. Azərbaycan SSR Əməkdar artisti Lütfiyar İmanov Kuybışev (Samara) Opera və Balet Teatrında qastrol səfərində olarkən ifa etdiyi Pyotr Çaykovskinin "Qaratoxmaq qadın" və Şarl Qunonun "Faust" tamaşalarında German və Faust rollarında. 1970-ci illər.SMF №685/48

624. **Afişa**. Azərbaycan SSR Xalq artisti Lütfiyar İmanov Lenin ordenli Qırğızıstan Dövlət Akademik Opera və Balet Teatrında qastrol səfərində olarkın ifa etdiyi Şarl Qunonun "Faust" və Pyotr Çaykovskinin "Qaratoxmaq qadın" tamaşalarında Faust və German rollarında. Fevral 1974-cü il. SMF № 685/47

625. **Afişa**. Azərbaycan SSR Xalq artisti Lütfiyar İmanov Lenin ordenli Belarus SSR Dövlət Akademik Böyük Opera və Balet Teatrında kecirilən opera və balet sənəti festivalında səhnələşdirilən Pyotr Çaykovskinin "Qaratoxmaq qadın" operasında German rolunda. 1974-cü il. SMF № 685/51

626-627. **Fotoşəkil**. Lütfiyar İmanov Cüzeppe Verdinin "Aida" operasında Radomes rolunda. 1974- cü il. Ölçüsü: 13x18 sm. SMF № 685/20

628. **Fotoşəkil.** Cüzeppe Verdinin "Aida" operasında Radomes rolunu ifa edən Lütfiyar İmanov Qəmər Almaszadə ilə. 1974-cü il. Ölçüsü: 11.5x18 sm. SMF № 669/67

629. **Proqram.** M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti, SSRİ Xalq artisti Lütfiyar İmanovun anadan olmasının 70 illiyi münasibətilə keçirilən yaradıcılıq gecəsi. 1979-cu il. SMF № 685/38

630. **Fotoşəkil**. Lütfiyar İmanov Fikrət Əmirovun "Sevil" operasında Balaş rolunda. 1980-ci il. 2 ədəd. Ölçüsü: 15x20 sm. SMF № 685/19

631. **Fotoşəkil.** Üzeyir Hacıbəylinin "Koroğlu" operasında Lütfiyar İmanov və Nigar Əlixanova Koroğlu və Nigar rollarında. 1980-ci illər. Ölçüsü: 15x20 sm. SMF № 685/27

632. **Fotoşəkil**. Cüzeppe Verdinin "Otello" operasında Lütfiyar İmanov Otello və Fidan Qasımova Dezdemona rollarında. 1980-ci illər. Ölçüsü: 12x17,5 sm. SMF № 685/24

633. **Fotoşəkil**. Lütfiyar İmanov Cüzeppe Verdinin "Otello" operasında baş rolda. Ölçüsü: 14,5x23 sm. 1980-ci illər. SMF № 685/15

634. **Afişa**. SSRİ Xalq artisti Lütfiyar İmanov Mahtumqulu adınaTürkmənistan Dövlət Opera və Balet Teatrında qastrol səfərində olarkən ifa etdiyi Cüzeppe Verdinin "Riqoletto", "Toska" və "Trubadur" operalarında Hersoq, Kavaradossi və Manriko rollarında. 1980-ci illər. SMF № 685/53

635. **Afişa**. Lütfiyar İmanovun Azərbaycan Dövlət Opera və Balet Teatrında anadan olmasının 60 illiyinə və yaradıcılığının 45 illiyinə həsr olunan konsert. 26 aprel 1989-cu il. SMF № 685/67

636. **Afişa**. Atatürk Kültür Mərkəzində Lütfiyar İmanovun yaradıcılıq fəaliyyətinin 50 illiyi münasibətilə keçirilmiş "Azerbaycan Besteçilerile bir akşam" adlı konsert. 11 yanvar 1994-cü il. SMF № 685/63

637. **Təbrik məktubu № 1/159**. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Lütfiyar İmanova anadan olmasının 75 illiyi münasibətilə göndərmişdir. 19 noyabr 2003-cü il. SMF № 685/43

### Azərbaycan SSR xalq artisti (1978), Azərbaycan Dovlət Opera və Balet Teatrının solisti və konsertmeysteri, tarzən Bəhram Mansurovun (1911 – 1985) kolleksiyasından

638. **Kamerton**. Metal. Tarı kökləmək üçün. Avropa istehsalıdır. HXƏF № 5557

639. **Dəmir lövhə**. Üzərində "Hörmətli Mansurov Bəhram. M. F. Axundov adına Opera və Balet Teatrının kollektivi Sizin anadan olmanızın 60 illiyini təbrik edir. Gülxar xanım. 1971-ci il" xatirə yazısı var. HXƏF № 5559

640. **Dəmir lövhə**. Üzərində "Əziz Bəhram əmiyə Faiqdən xatirə. 12/II – 73" yazılmışdır. HXƏF № 5559

641. **"Şərəf nişanı" ordeni № 535695**. 28.10.1967-ci il. Bəhram Mansurova məxsusdur. DK № 12097 /1

642. **"Şərəf nişanı" ordeni № 318720**. 09.06.1959-ci il. Bəhram Mansurova məxsusdur. DK № 12097/2

643. **Medal**. “1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə”. № 0028036. 06.06.1945- ci il. Bəhram Mansurova məxsusdur. DK № 12097/3

644. **Medal**. “Qafqazın müdafiəsinə görə” № 039912. 01.05.1944-ci il. Bəhram Mansurova məxsusdur.

645. **Döş nişanı**. “SSRİ Silahlı Qüvvələri üzrə mədəni hamiliyin əlaçısı” № 849. 27.04.1956-cı il. Bəhram Mansurova məxsusdur. DK № 12097/4

646. **Yubiley medalı**. “1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 30 illiyi” 25.04.1975-ci il. Bəhram Mansurova məxsusdur. DK № 12097/5

647. **Yubiley medalı** “1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 40 illiyi”. Bəhram Mansurova 05.08.1985-ci ildə verilib. DK № 12097/6

648. **Medal «Ветеран труда»**. 30.06.1976-ci il. Bəhram Mansurova məxsusdur. DK № 12097/7

649. **Yubiley nişanı**. M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının 50 illiyinə həsr olunmuşdur. Bəhram Mansurova 27.04.1958-ci ildə verilib. DK № 12097/8

650. **Fəxri nişan**. Ağ metaldandır. “Azərbaycan SSR əməkdar artisti” Bəhram Mansurova verilib. DK № 12097/9

651. **Fəxri nişan**. Sarı metaldandır. “Azərbaycan SSR xalq artisti” Bəhram Mansurova 09.01.1978-ci ildə verilib. DK № 12097/10

### SSRİ Xalq artisti (1973), opera və estrada müğənnisi Müslüm Maqomayevin (1942 – 2008) kolleksiyasından

652. **Fotoşəkil**. Müslüm Maqomayev. 29 oktyabr 1956-cı il. Ölçüsü: 8,1x12 sm. SMF № 353/15

653. **Fotoşəkil**. Müslüm Maqomayev Jorj Bizenin “Karmen” operasında Eskamilyo rolunda. Ölçüsü: 8,8x11,9 sm. SMF № 353/17

654. **Fotoşəkil**. Müslüm Maqomayev Coakkino Rossininin “Sevilya bərbəri” operasında Fiqaro rolunda. Bakı, 1957-ci il. Ölçüsü: 8,9x13,8 sm. SMF № 353/16

655. **Afişa**. M. F. Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Azərbaycan SSR əməkdar artisti Müslüm Maqomayevin konserti. Avqust, 1970-ci il. HXƏF № 345



*Hüseynqulu Sarabski və Mirzağa Əliyev Üzeyir Hacıbəylinin «Arşın mal alan» musiqili komediyasında. 1920-ci illər*



*Üzeyir Hacıbəylinin «Arşın mal alan» musiqili komediyasından səhnə*







***Üzeyir Hacıbəylinin «Arşın mal alan» musiqili komediyasından səhnələr***




*Azərbaycan İctimai*
*Şura Cümhuriyyəti*
*Xalq Maarif Komissarlığının*
*Böyük Dövlət Teatrosunda*
*Şövkət Məmmədovanın*
*iştirakı ilə Əbdürrəhim bəy*
*Haqverdiyevin tərcüməsində*
*türk (Azərbaycan) dilində*
*ilk dəfə səhnəyə qoyulan*
*Leo Delibin "Lakme"*
*operasının afişası.*
*22 mart 1924-cü il*



*SSRİ Xalq artisti*
*Şövkət Məmmədova*
*Leo Delibin "Lakme"*
*operasında baş rolda*




***Azərrbaycan Xalq Maarif Komissarlığının Böyük Dövlət Teatrında italyan tenoru Villiam Dorianinin, habelə Y. Slivinskaya və Y. Zaqumennının iştirakı ilə Cakomo Puççininin "Toska" operasının afişası. 18 yanvar 1925-ci il. Afişada anons olaraq həmin il yanvarın 20-də V. Doriani ilə birlikdə Şövkət Məmmədova və V. Şaxrayın iştirakı ilə "Traviata" operasının nümayişi haqqında məlumat verilir***




***Bakıda qastrolda olan aktyor Aleksandr Mozjuxinin və Şövkət Məmmədovanın iştirakı ilə Böyük Dövlət Teatrının səhnəsində qoyulan Coakino Rossininin "Sevilya bərbəri" operasının afişası. 28 mart 1925-ci il. Afişada anons olaraq həmin il martın 29-da A. Nejdanovanın konserti haqqında məlumat verilir***

*Azərbaycan Sosialist Şura Cümhuriyyəti Xalq Maarif Komissarlığının M. F. Axundov adına Böyük Dövlət Opera Teatrında səhnələşdirilmiş Reynqold Qliyerin "Şahsənəm"operasının ilk tamaşasının afişası. 27 aprel 1934-cü il*






*Reynqold Qliyerin "Şahsənəm" operasından səhnə. Şahsənəm rolunda Şövkət Məmmədovadır*




***Moskva Bədii Akademik Teatrında Şövkət Məmmədovanın iştirak etdiyi SSRİ xalqları yaradıcılığının yeganə nümünəvi konserti. Moskva, 24 iyun 1925-ci il***



***Həqiqət Rzayeva Müslüm Maqomayevin "Şah İsmayıl" operasında Ərəb Zəngi rolunda***



*Cüzeppe Verdinin “Aida” operasından səhnə. Aida rolunda – Fatma Muxtarova, Radames rolunda – Donat Donatov. Bakı, 1951-ci il*




*Döş nişanı. “ГОТОБ”un (Dövlət Opera və Balet Teatrının) Bakıda fəaliyyətinin 15 illiyi münasibətilə buraxılmışdır. Aktyor Hüseyqulu Sarabskinin kolleksiyasından. 1935-ci il*



*Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletindən səhnə. Bakı, 1940-cı il*



*Üzeyir Hacıbəylinin "Koroğlu" operasından səhnə. Baş rolda Bülbül*



*Azərbaycanın ilk balerinası Qəmər Almaszadə Pyotr Çaykovskinin "Şelkunçik" baletində Maşa rolunda*




*"M. F. Axundov adına Az. SSR Böyük Dövlət Opera və Balet Teatrosu"nun "Koroğlu" albomu. Bakı, 1937*




***M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrında tamaşaya qoyulmuş Çezare Puni və Reynqold Qlierin "Esmeralda" baletinin premyerasının afişası. Baş rollarda Qəmər Almaszadə, Konstantin Bataşov və Nikolay Kuznetsov. 30 may 1939-cu il***



***Qəmər Almaszadəyə məxsus çəhrayı atlazdan balet ayaqqabısı və Pyotr Çaykovskinin "Sonalar gölü" baletinin personajları – Odiliya və Odettanın saç bəzəkləri***



***Müslüm Maqomayev Coakkino Rossininin “Sevilya bərbəri” operasında Fiqaro rolunda. Bakı, 1957-ci il***



***Lütfiyar İmanov Ramiz Mustafayevin “Vaqif” operasında baş rolda. 1960-cı il***



*Gümüş nişan № 573.*
*“Azərbaycan Dövlət*
*Opera və Balet Teatrının*
*50 illiyi”.*
*Niyazinin kolleksiyasından*



*Cüzeppe Verdinin “Otello”*
*operasında Lütfiyar İmanov Otello*
*və Fidan Qasımova Dezdemona*
*rollarında. 1980-ci illər*




*SSRİ xalq artisti Lütfiyar*
*İmanovun anadan olmasının*
*60 illiyi və yaradıcılığının*
*45 illiyi münasibətilə*
*M.F.Axundov adına*
*Lenin ordenli Azərbaycan*
*Dövlət Akademik Opera və*
*Balet Teatrında keçirilmiş*
*yubiley gecəsinin afişası.*
*26 aprel 1989-cu il*



*Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasında Azərbaycan Respublikasının xalq artisti Azər Zeynalov – Əsgər, Azərbaycan Respublikasının əməkdar artisti Nətavan Növrəsli – Gülçöhrə rollarında. 1996-cı il*



*Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasında Azərbaycan Respublikasının xalq artisti Yaşar Nuri – Soltan bəy, Azərbaycan Respublikasının əməkdar artisti Nətavan Növrəsli – Gülçöhrə rollarında. 1996-cı il*



***Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletində Azərbaycan Respublikasının əməkdar artisti Tamilla Məmmədova – Gülyanaq, Azərbaycan Respublikasının əməkdar artisti Yuri Lobaçov – Cahangir xan rollarında. 1999-cu il***



***Jorj Bizenin "Karmen" operasında Sankt-Peterburq Mariinski Akademik Opera və Balet Teatrının solisti Regina Rüstəmova Karmen rolunda. 1996-cı il***



***Jorj Bizenin "Karmen" operasında Sankt-Peterburq Mariinski Akademik Opera və Balet Teatrının solisti Regina Rüstəmova – Karmen, Həsən Enami – Xoze rollarında. 1996-cı il***



***Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletində əməkdar artist Tamilla Məmmədova – Gülyanaq, Sankt-Peterburq Mariinski Akademik Opera və Balet Teatrının solisti Teymur Əsgərov – Polad rollarında. 1999-cu il***



***Cuzeppe Verdinin "Aida" operasında Azərbaycan Respublikasının xalq artisti Qərinə Kərimova – Aida, Azərbaycan Respublikasının əməkdar artisti Fidan Hacıyeva – Amneris, Şahlar Quliyev – Ammonasro, Teymuraz Ququşvili (Gürcüstan) – Rademes rollarında. 2006-2007-ci illər***



***Cuzeppe Verdinin "Aida" operasında Ukraynanın əməkdar artisti Viktoriya Çenskaya – Aida, Azərbaycan Respublikasının əməkdar artisti Fidan Hacıyeva – Amneris rollarında. 2011-ci il***



*Fikrət Əmirovun*
*“Min bir gecə” baletində*
*Azərbaycan Respublikasının*
*əməkdar artistləri*
*İslam İslamov – Şəhriyar,*
*Rimma İsgəndərova – Şəhrizad*
*rollarında. 2000-ci illər*



*Fikrət Əmirovun*
*“Min bir gecə” baletində*
*Azərbaycan Respublikasının*
*xalq artisti*
*Kamilla Hüseynova –*
*Nuridə rolunda.*
*2000-ci illər*



826. **Proqram (**fransız və ərəb dillərində**)**. Nizami Gəncəvinin əsəri əsasında Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulmuş "Xeyir və Şər" pyesi. Quruluşçu rejissor: Rəhman Əlizadə. Musiqi: Fikrət Əmirov. Rollarda: Rəhim Rəhimov, Cəmilə Allahverdiyeva. 2011-ci il. SMF № 2312.

827. **Afişa.** Abdulla Şaiqin130 illiyi ilə əlaqədar "Vətən" pyesinin motivləri əsasında Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulmuş "Dünya gözəli" nağıl-pyesi.Quruluşçu rejissor: Azərbaycan Respublikası Əməkdar incəsənət xadimi Rəhman Əlizadə. Bəstəkar: Azərbaycan Respublikası Əməkdar incəsənət xadimi Cavanşir Quliyev. 2011-ci il. SMF № 2315.

828. **Afişa.** Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulmuş Eyvind Şayenin "Od oğlan" pyesi. SMF № 2084/3.

829. **Afişa.** A. Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulmuş Ede Tarbainin "Qarınqulu zürafə" pyesi. SMF № 2084/6.

830. **Plakat-afişa**. A. Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrınındır. SMF № 2084/5.

831. **Plakat.** A. Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrınındır. SMF № 2084/4.

832. **Afişa**. Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının səhnəsində Heydər Əliyevin 90 illiyi münasibəti ilə tamaşaya qoyulan "Hər birimiz bir çiçək" pyesi. Mətnin müəllifi: Səidə Haqverdiyeva. Quruluşçu rejissor: Anaxanım Abdullayeva. Musiqi tərtibatı: Mehman Fərəcov. 15 may 2013-cü il. SMF № 2313.

833. **Afişa.** Astrid Linqrenin əsəri əsasında Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulmuş "Karlson" pyesi. Quruluşçu rejissor: Elena Matsxonaşvili. Bəstəkar: Şalva Matsxonaşvili. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə hazırlanıb. 2013-cü il. SMF № 2314.

834. **Afişa.** Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulmuş Şarl Perronun "Göysaqqal" (rus dilində) pyesi. Quruluşçu rejissor: Namiq Ağayev. Bəstəkar: Cahangir Zülfüqarov. 2013-cü il. SMF № 2316.




***Azərbaycan Dövlət Kukla Teatrnının səhnəsində tamaşaya qoyulmuş Əyyub Abbasovun "Keçinin qisası"("Şəngülüm-məngülüm") pyesinin afişası. Quruluşçu rejissor - H. Zamanov, bəstəkar - Şəfiqə Axundova. 1947-ci il***




***Azərbaycan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulmuş Tamara Şəfiyevanın "Kiçik qəhrəmanlar" pyesinin afişası. 1966-cı il***




***Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının plakatı***




***Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulmuş Eyvind Şayyenin "Odoğlan" pyesinin afişası. Tamaşanın sponsoru: Azəzərbaycanda Norveç Humanitar müəssisəsi. 1998-ci il***

# Bakı Bələdiyyə Teatrı



835. **Kitab.** Amaliya Pənahova.Yaratdığım obrazların ikinci planı. Bakı, 2001. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası № Az-7565.

836. **Proqram.** Azərbaycan Respublikası Bakı Bələdiyyə Teatrınının səhnəsində tamaşaya qoyulmuş Respublikanın Əməkdar incəsənət xadimi Abdulla Qurbaninin «Türk Sancağı» tarixi dramı.Quruluşçu rejissor: Azərbaycan Respublikasının Xalq artisti, Dövlət mükafatları laureatı Amaliya Pənahova. Rollarda: Kazım Qarabəkir Paşa – Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimləri Rafiq İbrahimov, Kərbəlayi Abbas –Əfqan Soltanov, Kəblə Muxtar –Tofiq Bayramov, Mirzə Nəsrullah –Azad Şükürov, Ağsaqqal – Azərbaycan Respublikasının Xalq artisti Vaqif Əliyev və b. 2007-2008-ci illər teatr mövsümü. SMF № 2309.

837. **Kitab.** İnqilab Kərimov. Bakı Bələdiyyə Teatrı. Bakı, 2008. Milli Azərbaycan Tarixi Muzeyinin kitabxanası № Az-7568.

838. **Afişa.** Azərbaycan Respublikası Bakı Bələdiyyə Teatrınının səhnəsində tamaşaya qoyulmuş Mövlud Süleymanlının "Bəylik dərsi" komediyası. Quruluşçu rejissor: Rövşən Almuradlı. Bəstəkar: Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Eldar Mansurov. Teatrın bədii rəhbəri və direktoru: Azərbaycan Respublikasının Xalq artisti, Dövlət mükafatları laureatı Amaliya Pənahova. 2009-cu il. SMF № 2306.

839. **Afişa**. Qurban Səidin əsəri əsasında Azərbaycan Respublikası Bakı Bələdiyyə Teatrınının səhnəsində tamaşaya qoyulmuş "Əli və Nino" pyesinin premyerası. 2011-ci il. SMF № 2307.

840. **Proqram.** Azərbaycan Respublikası Bakı Bələdiyyə Teatrınının səhnəsində tamaşaya qoyulmuş Qurban Səidin «Əli və Nino» ritual faciəsi. Səhnələşdirən və quruluşçu rejissor: Elvin Mirzəyev. Bəstəkar: Cəmalə Nəsirova. Geyim üzrə rəssam: Yelena Almazova. Rollarda: Əlixan Şirvanşir – Elvin Mirzəyev, Nino Kipiani – Nigar Həsənzadə, Səfərxan Şirvanşir – Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi Tofiq Bayramov və b. Teatrın bədii rəhbəri və direktoru: Azərbaycan Respublikasının Xalq artisti, Dövlət mükafatları laureatı Amaliya Pənahova. 2011-ci il. SMF № 2308.




***Bakı Bələdiyyə Teatrında tamaşaya qoyulmuş Mövlud Süleymanlının "Bəylik dərsi" komediyasının afişası. Quruluşçu rejissor Rövşən Almuradlı, bəstəkar Eldar Mansurov***
***2009-cu il***




*Qurban Səidin «Əli və Nino» ritual faciəsinin proqramı.*
*2011-ci il*


КУРБАН САИД

АЛИ И НИНО

(Двухактная ритуальная трагедия)

*Инсценировка и постановка:*
**Эльвин Мирзоев**

*Композитор:*
**Джамаля Насирова**

*Художник по костюмам:*
**Елена Алмазова**

*Пластика:*
**Людмила Гасанова**

*Постановка боя:*
**Таир Гасанов**

Роли исполняют:

*Али хан Ширваншир - Эльвин Мирзоев*
*Нино Кипиани - Нигяр Гасанзаде*
*Сафар хан Ширваншир - Тофик Байрамов*
*заслуженный артист Азербайджана*
*Ильяс бек Тагиев - Турал Агаев*
*Мелик Нахарарян - Ильгар Мусаев*
*Сеид Мустафа - Тогрул Рза*
*Мухаммед Гейдар - Намик Джавадов*
*Арслан Ага - Рамин Шихалиев*
*Евнух Яхья Гулу - Исмаил Атакишиев*
*Дервиши: - Вугар Гусейнов (ней)*
*- Рашид Султанов (ханенде)*
*- Эльвин Новрузов (кяманча)*
*- Бахруз Зейналов (тар)*
*Лезгинки: - Зульфия Мамедова*
*- Зульфия Гурбанова*
*- Айнур Аббасова*

Bədii yaradıcı heyət

Bədii rəhbər truppa üzrə köməkçi - Firəngiz Babayeva (əməkdar artist)
Bədii quruluş hissə müdiri - Nazim Abidov
Dekoratorçu rəssam - Sərəncam İbrahimova
Butatorçu rəssam - Aleksandr Fyodorov
Ədəbi dram hissə müdiri - Vidadi Hüseynov
Musiqi hissə müdiri - Ramin Babayev
İşıq xidməti rəisi - Yusif Məmmədov (Əməkdar mədəniyyət işçisi)
Kostyum sexinin rəisi - Leyla Əkbərova
Qrimçi rəssam - Solmaz Hüseynov
Əlbəsəçi - Fuad Əkbərov
Səs refissoru - Anar Rzayev

Azərbaycan Respublikası
BAKI BƏLƏDİYYƏ TEATRI

Qurban Səid
Əli və Nino
Курбан Саид
Али и Нино
Kurban Said
Ali & Nino

Azərbaycan Tarixi Muzeyi
Sənədli mənbələr Fondu
DK 12172
2308

Quruluşçu rejissor
ELVİN MİRZƏYEV

Teatrın bədii rəhbəri və direktoru
AMALİYA PƏNAHOVA
Xalq artisti, Dövlət mükafatı laureatı, sənətşünaslıq doktoru, professor

Bakı-2011

***Qurban Səidin «Əli və Nino» ritual faciəsinin proqramı. 2011-ci il***


QURBAN SƏİD

"ƏLİ VƏ NİNO"

(Ritual faciə)

*Səhnələşdirən və quruluşçu rejissor:* Elvin Mirzəyev
*Bəstəkar:* Cəmalə Nəsirova
*Geyim üzrə rəssam:* Yelena Almazova
*Plastiki hərəkətlərin quraşdırıcısı:* Lyudmila Həsənova
*Döyüş səhnəsinin quraşdırıcısı:* Tahir Həsənov

ROLLARI İFA EDİRLƏR:

Əlixan Şirvanşir - Elvin Mirzəyev
Nino Kipiani - Nigar Həsənzadə
Səfərxan Şirvanşir - Tofiq Bayramov (əməkdar artist)
İlyas bəy Tağıyev - Tural Ağayev
Məlik Naxararyan - İlqar Musayev
Seyyid Mustafa - Toğrul Rza
Məhəmməd Heydər - Namiq Cavadov
Arslan ağa - Ramin Şıxəliyev
Yəhya Qulu - İsmayıl Atakişiyev
Dərvişlər: - Vüqar Hüseynov (ney)
- Rəşid Soltan (xanəndə)
- Elvin Novruzov (kamança)
- Bəhruz Zeynalov (tar)
Qızlar: - Zülfiyyə Məmmədova
- Zülfiyyə Qurbanova
- Aynur Abbasova




***Abdulla Qurbaninin «Türk Sancağı» tarixi dramının proqramı. Quruluşçu rejissor: Amaliya Pənahova. Rollarda: Kazım Qarabəkir Paşa – Əməkdar incəsənət xadimləri Rafiq İbrahimov, Kərbəlayi Abbas –Əfqan Soltanov, Kəblə Muxtar –Tofiq Bayramov, Mirzə Nəsrullah –Azad Şükürov, Ağsaqqal – Vaqif Əliyev və b.***

# Planet Parni iz Baku
# KVN Teatrı



841. **Afişa.** "Planet Parni iz Baku" KVN Teatrının "Hər gün sirk" adlı yeni solo konserti. 26,27,28 aprel 2013. Bəhram Bağırzadənin kolleksiyasından. Ölçüsü: 46x65. SMF №2327.

842. **Afişa.** "Planet Parni iz Baku" KVN Teatrının "Hər gün sirk" adlı yeni solo konserti. 26,27,28 aprel 2013. Yuxarıda "Ünvan - Heydər Əliyev sarayı" yazılıb. Sol tərəfdə teatrın loqosu təqdim olunub. Mərkəzdə teatrın aktyorları Bəhram Bağırzadə, Cabir İmanov, Tahir İmanov və b-nın ifasında tamaşadan bir səhnə təsvir olunub. Ölçüsü: 46x65. DK – 12188.

843. **Afişa.** "Planet Parni iz Baku" KVN Teatrının "Eurogülüşion" adlı yeni solo konserti -13,14,15 aprel 2012. Yuxarıda "Ünvan - Heydər Əliyev sarayı" yazılıb. Sol tərəfdə teatrın loqosu təqdim olunub. Tam mərkəzdə "Eurogülüş" sözünün 1-ci "Ü" hərfində Azərbaycan bayrağı təbəssüm şəklində əks olunub. Ortadakı şəkildə Bəhram Bağırzadə, Azər Məmmədzadə, Tahir İmanov və Cabir İmanov musiqi alətləri ilə maraqlı ansambl yaratmışlar. Ölçüsü: 46x65. DK – 12188.

844. **Afişa.** "Planet Parni iz Baku" KVN Teatrının "10 lıne yubiley" adlı yeni solo konserti -14,15,16 aprel 2011. Yuxarıda "Ünvan - Heydər Əliyev sarayı" yazılıb. Sol tərəfdə teatrın loqosu, sağ tərəfdə Azərbaycan bayrağı təqdim olunub. Mərkəzdə Cabir İmanov, Bəhram Bağırzadə və Tahir İmanovun "Məhəllə" komediyasındakı obrazlarına məxsus geyimləri manikenlərə geyindirilmiş şəkildə təsvir edilib. Ölçüsü: 46x65. DK – 12188.

845. **Afişa.** "Planet Parni iz Baku" KVN Teatrının "Ağ-qara komediya" adlı yeni solo konserti -1,3,4 aprel 2010. Yuxarıda "Ünvan - Heydər Əliyev sarayı" yazılıb. Mərkəzdə qara kostyum geyinmiş Azər Məmmədzadə, Bəhram Bağırzadə, Tahir İmanov, Cabir İmanov və Elçin Həmidovun foto-şəkilləri ağ fonda xüsusi effektlə nəzəri cəlb edir. Ölçüsü: 46x65. DK – 12188.

846. **Afişa.** "Planet Parni iz Baku" KVN Teatrının "Qaydasız gülüş" adlı yeni solo konserti - 1,3,4 aprel 2009. Yuxarıda "Ünvan - Heydər Əliyev sarayı" yazılıb. Sol tərəfdə teatrın loqosu, sağ tərəfdə Azərbaycan bayrağı təqdim olunub. Mərkəzdə Elməddin Cəfərov, Elçin Həmidov, Tahir İmanov, Tünzalə Əliyeva və Cabir İmanov tatami üzərində, kimanoda təsvir edilmişlər. Ölçüsü: 46x65. DK – 12188.

847. **Afişa**. "Planet Parni iz Baku" KVN Teatrının "Baharın 7 anı" adlı yeni solo konserti - 1,3,4,5,6,7,8 aprel 2008. Yuxarıda "Ünvan- Azərbaycan Dövlət Opera və Balet Teatrı" yazılıb. Sol tərəfdə teatrın loqosu, sağ tərəfdə Azərbaycan bayrağı təqdim olunub. Mərkəzdə teatrın 7 aktyoru - Tahir və Cabir İmanovlar, Elçin Həmidov, Bəhram Bağırzadə və b. simalarının yarısı əks olunmuş şəkildə təsvir edilmişlər. Ölçüsü: 46x65. DK – 12188.

848. **Afişa.** "Planet Parni iz Baku" KVN Teatrının "6 günlük dünya" adlı yeni solo konserti – 15,116,17,18,21,22 oktyabr 2007. Yuxarıda "Ünvan - Azərbaycan Dövlət Opera və Balet Teatrı" yazılıb. Sol tərəfdə teatrın loqosu, sağ tərəfdə Azərbaycan bayrağı təqdim olunub. Mərkəzdəki şəkildə Elçin Həmidov, Tahir İmanov, Kubra Əliyeva, Cabir İmanov, Bəhram Bağırzadə və b. aktyorlar qlobusun üstündə təsvir olunmuşlar. Ölçüsü: 46x65. DK – 12188.

849. **Afişa.** “Planet Parni iz Baku” KVN Teatrının “Bizim Moskovski məhəlləmiz” adlı yeni solo konserti - Moskva şəhəri, 1dekabr 2007-ci il. Yuxarıdan sol tərəfdə teatrın loqosu, sağ tərəfdə Azərbaycan bayrağı verilib. Mərkəzdə Elçin Həmidov, Bəhram Bağırzadə, Tahir İmanov, Dilarə Əliyeva və Cabir İmanov təsvir olunmuşlar. Ölçüsü: 46x65. DK – 12188.

850. **Afişa.** “Planet Parni iz Baku” KVN Teatrının “100 kağız PP.B” adlı yeni solo konserti – 1,3,4,5,6,7 aprel 2007. Yuxarıda “Ünvan - Azərbaycan Dövlət Opera və Balet Teatrı” yazılıb. Sol tərəfdə teatrın loqosu, sağ tərəfdə Azərbaycan bayrağı təsvir olunub. Mərkəzdə Cabir İmanov, Bəhram Bağırzadə, Tahir İmanov, Elçin Həmidov, Kubra Əliyevanın şəkilləri verilmişdir. Ölçüsü: 46x65. DK – 12188.

851. **Afişa.** “Planet Parni iz Baku” KVN Teatrı “5 il axtarışda” adlı yeni solo konserti – 1,3,4,5,6 aprel 2006. Yuxarıda “Ünvan - Heydər Əliyev adına saray” yazılıb. Sol tərəfdə teatrın loqosu, sağ tərəfdə Azərbaycan bayrağı təsvir olunub. Mərkəzdə İlham Qasımov, Kubra Əliyeva, İlqar Nəbiyev, Elçin Həmidov, Tahir İmanov, Cabir İmanov və b. maraqlı fas-profil şəkilləri verilmişdir. Ölçüsü: 46x65. DK – 12188.

852. **Afişa.** “Planet Parni iz Baku” KVN Teatrının “Axtaran tapar” yeni il komediyası – 6,7,8,21,22 dekabr 2006. Yuxarıda “Ünvan - Heydər Əliyev sarayı” yazılıb. Sol tərəfdə teatrın loqosu, sağ tərəfdə Azərbaycan bayrağı təsvir olunub. Mərkəzdə Tahir İmanov, Bəhram Bağırzadə, Vəfa Zeynalova, Elçin Həmidov, Cabir İmanov və b. şəkilləri verilmişdir. Ölçüsü: 46x65. DK – 12188.

853. **Afişa.** “Planet Parni iz Baku“ KVN Teatrının “Xalqlar dostluğu” adlı yeni solo konserti – 1,3,4,5 aprel 2005. Yuxarıda “Ünvan - Heydər Əliyev adına saray” yazılıb. Sol tərəfdə teatrın loqosu, sağ tərəfdə Azərbaycan bayrağı təsvir olunub.Mərkəzdə Elçin Həmidov, Coşğun Rəhimov, İlqar Nəbiyev, Tahir İmanov, Rafael İsgəndərov, Cabir İmanov, İlham Qasımov Kubra Əliyeva və b. təqdim olunub. Ölçüsü: 46x65. DK – 12188.

854. **Afişa.** “Planet Parni iz Baku” Studiya təqdim edir: “Məşədi İbad 94” kinokomediyası – 24,25 dekabr 2005. Yuxarıda “Ünvan - Heydər Əliyev adına saray” yazılıb. Sol tərəfdə teatrın loqosu, sağ tərəfdə Azərbaycan bayrağı təsvir olunub.Afişada kinokomediyanın bütün aktyor heyəti öz səhnə obrazlarında təqdim olunub. Ölçüsü: 46x65. DK – 12188.

855. **Afişa.** “Planet Parni iz Baku” KVN Teatrı “Bu şəhərin məhəlləsi” adlı yeni solo konserti – 10,11,15 iyun 2004.Yuxarıda “Ünvan - Heydər Əliyev adına saray” yazılıb.Sol tərəfdə teatrın loqosu, sağ tərəfdə Azərbaycan bayrağı təsvir olunub.Mərkəzdə İlham Qasımov,Coşğun Rəhimov, İlqar Nəbiyev, Elçin Həmidov, Kubra Əliyeva, Tahir İmanov, Rafael İsgəndərov və Cabir İmanovun pərdələr arasından tamaşaçıları salamlayan şəkli verilmişdir. Ölçüsü: 46x65. DK – 12188.

856. **Afişa.** “Planet Parni iz Baku” Studiya təqdim edir: “Məhəllə” kinokomediyası –23, 24 yanvar 2003. Yuxarıda “Ünvan - Mərkəzi Konsert Salonu “Respublika” sarayı” yazılıb. Sol tərəfdə teatrın loqosu təsvir olunub.Mərkəzdəki şəkildə Coşğun Rəhimov, İlham Qasımov, Elçin Həmidov, Kubra Əliyeva, Rafael İsgəndərov, Dilarə Əliyeva, Tahir və Cabir İmanov qardaşları və başqaları öz səhnə obrazlarında təqdim olunub. Ölçüsü: 46x65. DK – 12188.

857. **Afişa.** “Planet Parn iz Baku” verilişləri - 2001 (81 buraxılış) konserti Yuxarıda sol tərəfdə Azərbaycan bayrağı, sağ tərəfdə teatrın loqosu təsvir olunub. Mərkəzdə Cabir və Tahir İmanov qardaşları və Elçin Həmidovun Bakının gecə görüntüsü fonunda şəkli yer alıb.

858. **Köynək.** Ağ batist parçadan kişi köynəyidir. Yaxasında 8, qollarının hər birində 3 düymə var. “Verri studio. Doppio Ritarto” İtaliya firmasının istehsalıdır. “Planet Parni iz Baku” KVN Teatrının aktyoru Bəhram Bağırzadəyə məxsusdur. Ölçüsü: XXXL (47/48) HXƏF № 5614

859. **Kostyum pencəyi**. Qara rəngdədir. Azərbaycanın “Emiland” firmasının istehsalıdır. Birbortludur. Arxa tərəfdən ortadan kəsiyi var. Yaxasında 2, qollarının hər birində 4 düymə vardır. Astarı qara ipəkdəndir. Bəhram Bağırzadəyə məxsusdur. Ölçüsü: 62 sm. HXƏF № 5615

860. **“Kəpənək”** qalstuk. İkiqat qara ipəkdəndir. Ağ nazik rezinə bərkidilmişdir. Bəhram Bağırzadəyə məxsusdur. Ölçüsü: uzunluğu-11 sm. HXƏF 5616

861. **Kepka.** Qara mahuddandır. Günlüyü üzərində «Лучшему Актеру- кепочнику КВН «Парни из Баку» 04.09.96.» yazılmış metal lövhəcik bərkidilmişdir. Astarı süni qara ipəkdəndir. Bəhram Bağırzadəyə məxsusdur. Ölçüsü: d-60 sm. HXƏF 5617

862. **Ağ ipək dəsmal**. Döş cibinə qoymaq üçündür. Alov formasında hazırlanmışdır. Cibə sancaqla bərkidilir. Bəhram Bağırzadəyə məxsusdur. Ölçüsü: uzunluğu- 12 sm. HXƏF 5618

863. **DVD-R (kompakt disk)** 2 ədəd – “Planet Parni iz Baku” KVN Teatrı 2009. “Qaydasız gülüş” adlı konsertindən 710 şəkil. DK – 12189.

864. **DVD-R (kompakt disk)** 1 ədəd – “Planet Parni iz Baku” KVN Teatrı 2010.“Ağ-qara komediya” adlı konsertindən 942 şəkil. DK – 12189.

865. **DVD-R (kompakt disk)** 2 ədəd – “Planet Parni iz Baku” KVN Teatrı 2011.“10 lıne yubiley” adlı konsertindən 1343 şəkil. DK – 12189.

866. **CD-R80 (kompakt disk)** 16 ədəd – “Planet Parni iz Baku” KVN Teatrı 2012. “Eurogülüşion” adlı konsertindən 880 şəkil. DK – 12189.

867. **DVD-R (kompakt disk)** 1 ədəd – “Planet Parni iz Baku” KVN Teatrı 2013.“Hər gün sirk” adlı konsertindən 1201 şəkil. DK – 12189.

868. **CD-R80 (kompakt disk)** 1 ədəd – “Parni iz Baku” KVN iştirakçılarının müxtəlif illərdə çəkilmiş şəkilləri - 136 kadr. DK – 12189.

869. **CD-R80 (kompakt disk)** 1 ədəd – “Planet Parni iz Baku” KVN Teatrının 21.04.2011-ci il tamaşa zamanı səhnəarxası şəkilləri - 148 kadr.

870. **CD-R80 (kompakt disk)** 1 ədəd – 1996-cı il “Parni iz Baku” KVN-nin səhnəsində - Leyla Əliyeva və səhnəarxasında Heydər Əliyevin fotoşəkilləri - 2 kadr


PLANET
PARNI IZ BAKU
PLANET PARNÌ ÌZ BAKU
2001





*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev artistləri təbrik edir*



*Heydər Əliyev və Mehriban xanım Əliyeva tamaşa salonunda*


Mərkəzi Konsert Salonu "Respublika" sarayı
"Planet Parni iz Baku Studiya"
təqdim edir:
23,24
yanvar
saat
19:00
biletlər
sarayın
kassalarında
satılır
MƏHƏLLƏ
kinokomediyası
2003


HEYDƏR ƏLİYEV ADINA SARAY
PLANET PARNİ İZ BAKU
PLANET PARNI IZ BAKU
KVN TEATRI
1, 3, 4, 5 aprel saat 19:00
XALQLAR DOSTLUĞU
ADLI YENİ SOLO KONSERTİ
biletlər sarayın kassalarında satılır 2005


HEYDƏR ƏLİYEV adına SARAY
PLANET PARNİ İZ BAKU
KVN TEATRI
PLANET PARNI IZ BAKU
00789
00789
89770
89770
54860
54860
07455
07455
00323
00323
32300
32300
90917
90917
1, 3, 4, 5, 6
APREL
saat 19.00
BİLETLƏR SARAYIN KASSALARINDA SATILIR
5 il
axtarışda
ADLI
2006 YENİ SOLO KONSERTİ


DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI
PLANET PARNİ İZ BAKU
KVN TEATRI
PLANET
PARNI IZ BAKU
Günlük 6 Dünya
ADLI YENİ SOLO KONSERTİ
15, 16, 17, 18, 21, 22 OKTYABR
2007
Biletlər teatrın kassalarında satılır. Saat 19:00


AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI
PLANET PARNİ İZ BAKU
KVN TEATRI
1,3,4,5,6,7,8 APREL
BAHARIN 7 ANI
ADLI YENİ SOLO KONSERTİ
2008
Biletlər teatrın kassalarında satılır. Saat 19:00


HEYDƏR ƏLİYEV SARAYI
PLANET PARNİ İZ BAKU
KVN TEATRI
PLANET PARNI IZ BAKU
QAYDASIZ GÜLÜŞ
ADLI YENİ SOLO KONSERTİ
1,3,4 aprel 2009
Başlayır saat 19:00-da. Biletlər şəhərin kassalarında satılır.


HEYDƏR ƏLİYEV SARAYI
PLANET PARNİ İZ BAKU
KVN TEATRI
1, 3, 4 APREL
AĞ-QARA komediya
ADLI YENİ SOLO KONSERTİ
2010
Saat 19:00-da. Biletlər şəhərin kassalarında satılır.


HEYDƏR ƏLİYEV SARAYI
PLANET PARNİ İZ BAKU
KVN TEATRI
PLANET
PARNI IZ BAKU
10 LINE YUBİLEY
ADLI YENİ SOLO KONSERTİ
14,15,16 APREL
2011


HEYDƏR ƏLİYEV SARAYI
Planet PARNI BAKU
PLANET PARNİ İZ BAKU KVN TEATRI
EUROGÜLÜŞION
ADLI YENİ SOLO KONSERTİ
13, 14, 15 APREL 2012


HEYDƏR ƏLİYEV SARAYI
Planet PARNI BAKU
PLANET PARNİ İZ BAKU KVN TEATRI
HƏR GÜN SİRK
ADLI YENİ SOLO KONSERTİ
26,27,28 APREL 2013

# Azərbaycan türk teatrosunun müxtəsər tarixçəsi. 1873-1923

**Milli Tarixi Azərbaycan Muzeyinin Sənədli Mənbələr fondu**
**(SMF №DK 11762, №663/1)**

*Mətnin dili və üslubu orijinalda olduğu kimi saxlanılır.*
*Ərəb qrafikasından latın qrafikasına transliterasiyası Nailə Vəlixanlınındır*

**Bütün dünya işçiləri, birləşiniz**

# Azərbaycan türk teatrosunun müxtəsər tarixçəsi 1873-1923

Türk səhnəsinin 50 illik yavmalisinin komisiyonu tərəfindən təlif edilmişdir.

"Maarif və mədəniyyət" məcmuəsinə əlavədir.

**Maarif komissarlığının nəşriyyatı**

Bakı
A.X.T.S. və Q. Poliqraf trestin birinci hökümət mətbəəsi
1923



**Yoldaş Mustafa Quliyev**
***maarif komissarı***



**Yoldaş Dadaş Bünyadzadə**
*Türk Hökumət Teatrosunun və Tənqid və Təbliğ Teatrosunun banisi*



**Yoldaş Tağı Şahbazi**
*maarif komissarı müavini və*
*teatro komisiyonunun sədri*



**Rza Təhmasib**
*Türk Hökumət Teatrosunun baş müdiri*



**Abbas Mirzə Şərifzadə**
*Türk Hökümət Teatrosunun baş rejissoru*

*(s.13)* Bu günlərdə bütün Azərbaycanda və Zaqafqaziyanın sair şəhərlərində olan türklər türk teatrosunun 50 illik sənə dövriyyəsini *(ildönümünü)* bayram edirlər.

"Teatro" ləfzi *(sözü)* dedikdə nəzərimizdə pərdə ilə ikiyə təqsim olunmuş *(bölünmüş)* bir otaq gəlir, ki onun bir hissəsində oturan camaat o biri hissəsində kəndi *(öz)* məişətini, tarixini, qəmli və şad günlərini bir aynədə görən kimi görür. Bu bizim hal-hazırdakı teatromuzdur; və bu teatronun ömrü üç min ilə yavuqdur ki, ənvai-məratib təkmili ilə indiki məqama çatmışdır. Böylə ki, Avropanın böyük şəhərlərində və paytaxtlarında gözəl binaların ən gözə çarpanları əvvəl kəlisalar, sonra teatrolardır.

Lüğəvi mənasına gəldikdə, teatro – meydan və yaxud mərəkə deməkdir ki, orada qədim əyyamda camaata hökumət əmrlərini yetirmək, müqəssirlərə tənbih, camaata dair ümuratın *(əmrlərin)* müşavirəsi, mövzə, cürbəcür təbliğat, şəbədəbazlıq və sair camaat nəzərindən keçirilməsi lazım görülən əməllər üçün iclaslar tərtib edilirdi. Aşkardır kı böylə məclislərdə müəyyən şəxslər aralığa çıxardılar və çıxıb da piş əz vəqt *(əvvəldən)* hazırlanmış vəzləri *(təlimat)* və yaxud əmrləri camaata yetirirdilər və ya bir növgünə *(növbənöv)* hazırlanmış olan oyunları və şəbədələri göstərirdilər. Əgər bu nəzər ilə baxarisək teatronun mənası böylədir: teatro bir məclisdir ki, oraya camaat hazırlanmış sözlərin deyilməsinə qulaq asmaq və hazırlanmış hərəkətlərin icrasına tamaşa etmək üçün cəm olur.

Böylə isə teatro dünya kimi qədimdir.

Dünyaya ilk gələn insanların məişətini ovçuluq ilə keçirirdi; ovçular öldürdükləri heyvanların yatmaqlarının, qaçmaqlarının və yaxud ölən vaxtda can verməklərinin təşbihini (oxşatma) götürürdülər. Bu özü bir teatro idi. Qədim insanlar bütlərə sitayiş edirdilər; quşların nəğmələri onlara təbii olaraq xoş gəldiyindən onlar güman edirdilər ki, Allahlarına münacatı *(duanı)* nəğmə ilə yetirsələr duaları tez müstəcab olar *(istəyi yerinə yetər)*. Odur ki, başladılar nəğmə ilə dua etməyə və ağız ağıza verib oxumağa; burada "xorun" binası qoyuldu; duaları zərif nəzif dillər ilə demək iraq göründükdə camaat arasından şairlər çıxaraq Allahlara layiq dualar icad etdilər.

Xorun içində ən yaxşı səslilər camaatın rəğbətini qazanıb xordan seçilib onu idarə etməyə başladılar. Bu xor rəislərinə axırda Yunanıstanda korifey deyirdilər. Xor və korifeyi teatronun binasını qoydular. O səbəbdən teatronu dünya kimi qədim hesab edirlər.

Əlavə dünyanın xilqətindən bəri hər millərin kəndisinə məxsus milli oyunları olmuşdur; bu milli oyunlar yenə teatrolardır. Çünki orada danışılan sözlər və icra olunan hərəkətlər qabaqdan məlumdur. Milli oyunlar hər bir millətdə olan kimi türk millətində də vardır. Məsələn: "Kosa gəlin", "Keçəpapaq", "Qara göz" və sair oyunlar kimi.

Yunanıstanda ildə bir dəfə üzüm dərilən zaman məstlik Allahı (Dionisin) eşqinə böyük oyunlar olardı. Cavanlar başlarına keçi dərisi geyib özlərini keçiyə oxşadıb oyunlar düzəldirdilər. Yunanıstan şüara və üdabası camaata öz əfkarını yetirmək üçün bu keçipapaqlardan istifadə etməyə başladılar və cürbəcür sözlər, şerlər yazıb oyun vaxtı oxumaq üçün keçipapaqlara verirdilər. Oyunçuların danışıqları ədəbiləşdikcə camaatın diqqətini cəlb etdi. Şüara axırda bu oyunçulardan bir dəstə düzəldib Yunanıstanda teatro binasını qoydular və oralarda göstərilən oyunların adına "tragediya", yəni keçi oyunu dedilər. Teatrlar açıq meydanlarda, xüsusi səhnələrdə göstərilirdi.

Yunanıstan dünyaya böyük faciənəvislər *(faciə yazanlar)* verdi ki, onların əsərləri indi də maraqla oxunur. Bunların məşhurları: Sofokl, Evripid, Esxil və Aristofandı.

Üç yüz qırx il miladdan qabaq İskəndər Rumi İranı alıb Yunanıstana mülhəq etdi, İran ilə Yunanıstanın əlaqəsi hər bir cəhətdən başlandı: həmçinin İran Yunanıstandan teatro çıxarmağı da öyrəndi. Amma heyif ki, teatro İranda əsla tərəqqi etməyib, əvvəlki surətdə qalmışdır. İran islamı qəbul edəndən sonra teatro tərk edildi və sufilər

onu təzələdilərsə də heç bir təğyir vermədilər. Yəni teatro meydan sifətində qaldı və bu meydanlarda Kərbəla müsibətindən dram surətində əsərlər yazıb camaata göstərməyə başladılar. Bu tamaşalara şəbih dedilər ki, indi də bizim aramızda vardır və Yunanıstan teatrosunun eynidir.

Bir yüz il bundan əqdəm şəbihlərin məişətə yaxınlaşdırması imtahanı oldu və Kərbəla müsibətinə dəxli olmayıb ibrət üçün yazılmış "Aqi-valideyn" *("Valideynin üzünə ağ olan")* adlı bir əsər naməlum bir şəxs tərəfindən yazılıb ortalığa çıxdısa da şəbih aləmində bir inqilab ola bilmədi; çünki o vaxt Avropa teatrosu və Avropa teatro ədəbiyyatı ətrafı bürüyüb geniş bir qədəm ilə hər tərəfə gedirdi. Axırda Azərbaycanı da öz tahti-təsirinə *(təsiri altına)* aldı və 1873-cü ildə Novruz bayramında Bakı klubunda şimdiki Zəhmət Sarayı binasında əvvəlinci dəfə olaraq türk dilində Avropa üsulunda teatro oynandı. Həmin bu tarixdən etibarən Azərbaycan türk teatrosunun binası hesab olunur ki, indi tamam 50 ildir. Oynanılan komediya ilin türk dramnəvisi Mirzə Fətəli Axundzadənin "Hacı Qara"sı idi.

***(s. 16)*** Mirzə Fətəli Axundzadə Nuxada 1812-ci ildə təvəllüd etmişdir. Atası Mirzə Məhəmməd Tağı Təbriz əyalətindən Xamnə qəsəbəsindəndir. Anası Nuxalı Hacı Molla Əli Əsğərin bacısı qızıdır.



**Mirzə Fətəli Axundzadə**

Mirzə Fətəli üç yaşında ikən anası ərindən boşanıb Molla Əli Əsğərin evinə qayıtmışdır. O gündən axıra qədər Molla Əli Əsğərin təvəccöhü *(rəğbəti)* sayəsində təhsilulum etmişdir; Molla Əli Əsğərin fikri Mirzə Fətəlini kəndisi *(özü)* kimi bir molla etmək idi. Və bu niyyət ilə də onu aparıb Gəncə məscidində dərsə qoyur. Burada Mirzə Fətəli məşhur ürəfadan olan Mirzə Şəfi ***(s. 17)*** ilə mülaqat edir *(görüşdürür)*. Mirzə Fətəli özü nağıl edir ki, bir gün Mirzə Şəfi məndən xəbər aldı ki, elm oxumaqdan məqsədin nədir? Mən cavab verdim ki, istəyirəm molla olam. Mirzə Şəfi dedi: Sən də istəyirsən ki, onlar kimi riyakar və şarlatan olasan? Bundan sonra başladı mənə başqa yollar göstərməyə, mənim fikirlərimin dəyişilməsinə səbəb oldu.

Gəncədə ərəb və fars dillərini mükəmməl surətdə öyrənəndən sonra Nuxaya qayıdaraq orada təzə açılmış rus məktəbinə daxil olur; bir il məktəbdə oxuyandan sonra Molla Əli Əsğər onu aparıb Tiflisə Canişin divanxanasında mütərcimliyə ərizə verib qəbul etdirir. Bu mənsəbdə ömrünün axırına qədər qalır.

Mirzə Fətəli altı komediya yazmışdır: "Hacı Qara", "Xırs quldur basan", "Dərviş Məstəli şah", "Molla İbrahim Xəlil kimyagər", "Vəziri xanı Sərab" və "Mürafiə vəkilləri".



**Nəcəf bəy Vəzirov**

***(s. 18)*** Əlli il bundan əqdəm Bakıda teatro qoyanlar realni məktəbin şagirdləri oldular. Şagirdlərdən Nəcəf bəy Vəzirov rusların və ermənilərin teatrosunu görüb o vaxt müəllimi olan Həsən bəy Məlikovdan türk dilində teatroya dair əsərlərin olduğunu xəbər alır. Həsən bəy ona Mirzə Fətəlinin kitabını verir. Uşaqları başına yığıb "Hacı Qara" komediyasını hazırlayıb bayram günü klubda oynayırlar. Türk balalarından oynayanlar - biri Nəcəf bəy Vəzirov, digəri sabiq Gəncə qlavası mərhum Əsgər ağa Adıgözəlov olur. Yerdə qalanlar ləzgilər idi. Bu oyun tamaşaçıları artıq dərəcədə məmnun edir və camaatın xahişinə görə sonra da neçə türk teatrosu verilir. Nəcəf bəy Vəzirov realni məktəbini qurtarandan sonra Petrovski akademiyaya daxil olur və buradan başlanmış neçə dənə komediyalar və faciələr yazır. Deməli, Nəcəf bəy Mirzə Fətəlidən sonra ikinci faciənəvisdir. Əsərlərinin ***(s. 19)*** bir neçəsi tələf olub, əlində olanları bunlardır: "Yağışdan çıxdıq, yağmura düşdük", "Müsibəti Fəxrəddin", "Adı var, özü yox", "Pəhlivanani zəmanə", "Ev tərbiyəsi", "Ağa Kərim xan Ərdəbili", "Hər nə əkərsən, onu biçərsən", "Daldan atılan daş", "Keçmişdə qaçaqlar" və sairə. Ondan əlavə Aleksey Tolstoyun "İvan mühibin *(Qroznının)* vəfatı"nı tərcümə etmişdir. Nəcəf bəyin bir neçə komediyası tatar dilinə tərcümə olunub və Kazanda təb *(çap)* edilmişdir.

1873-dən 1882-yə qədər türk səhnəsində fəaliyyət görünməyirdi. Bu ildən başlamış Azərbaycanın sair şəhərlərində teatro başlanır və oynayanlar çinovniklər və müəllimlər olurdular... ***(s. 20)***

Yenə bu sənədən *(ildən)* başlamış Şuşada hər yay fəsli türk müəllimləri teatrolar çıxarırlar; tamaşalar əvvəl Cəmşidbək Məlikşahnəzərovun mülkündə, sonra klubda və axırda Xandəmirovun teatrosunda göstərilirdi. Şişədə *(Şuşada)* ilk teatro ilin teatr qoyan-

ları bunlardır: Yusif bəy Məlik Haqnəzərov, (mərhum) Muxtar Muradov), Həsənəli bəy Sarıcalinski (mərhum), Əliş bəy Fuladov (mərhum), Ləliş Tahirov (mərhum), İsmayıl bəy Şəfibəyov (mərhum), Baxşəli bəy Məhərrəmbəyov (mərhum), Haşım bəy Vəzirov (mərhum). Bunlardan Haşım bəy Vəzirov iki dənə komediya yazıbdır: biri "Döymə qapımı, döyərlər qapını" və digəri "Evlənmək su içmək deyil". Bunlardan əlavə Şekspirin "Otello"-sunu tərcümə etmişdir. Zamanə üçün türk teatrosunun böyük fəallarından olubdur.

1887-ci ildən türk teatrosu Bakıda gəldikcə tərəqqi etməyə başlayır. O vaxtın cavanlarından Sultan Məcid Gənizadə, Həbib bəy Mahmudbəyov və Nəcəfqulu bəy ***(s. 21)***



**Haşım bəy Vəzirov**

Vəliyov başlarına həvəskarlar cəm edib teatrolar verməyə başlayırlar. Bu şəxslərin teatro yolunda çəkdikləri əzab, uğraşdıqları ənvai-təhqirat, föhşlər *(söyüşlər)* heç birisi vəsfə gələsi deildir. Qapı-qapı düşüb bilet satmaqla, hər biletə bir manat verib, min manatlıq föhş verənlərə mütəhəmmil ola-ola *(dözə)* teatrolar verib, özləri üçün bir quruş götürməyib əxz etdikləri paraları biçiz məktəb uşaqlarına göndərirdilər. Paltar məsələsi türk teatrosunun ağır məsələlərindən biri idi. Xüsusən arvad libası ki, labüd qalıb *(adı çəkilməz)* evlərdən yığırdılar.



**Sultan Məcid Qənizadə**

Bu şəxslərin teatro yolunda zəhmətləri çox böyük və teatro tarixinə adları qızıl ilə yazılmalıdır. ***(s. 22)*** Teatro yükünün çox ağırını çəkən Sultan Məcid Qənizadədir ki, doğrudan doğruya teatro üzərində böyük əməyi vardır. Taetroya böyük pyesalar verməmişsə də, həmişə rejissorluq zəhmətini o, çəkmişdir. Bu zəhmətin nə payədə *(dərəcədə)* ağır olduğunu həvəskarlar ilə işləyənlər bilir.

Sultan Məcid Qənizadənin "Qönçə xanım" adlı bir draması senzor tərəfindən zəbt olunmuşdur. Bundan əlavə yazdıqları "Axşam səbri xeyir olar", "Yadımdadır", "Dursunəli və Ballabadı", "Xor-xor", "Fədakarlıq". Bunlardan maidə *(əlavə)* Lev Tolstoyun "Əvvəlinci şərabçı"sını nəfis bir surətdə tərcümə etmişdir.



**Həbib bəy Mahmudbəyov**

***(s. 23)*** Həbib bəy Mahmudbəyov hər nə qədər türk teatrosuna dair əsərlər yazmışsa da, fəqət Mirzə Fətəli komediyalarının rollarını yaratmaqda zəmanənin binəzir *(misilsiz)* aktyoru olmuşdur.



**Nəriman Nərimanov**

1891-ci ildən başlayaraq yuxarıda adları zikr olunan şəxslər ilə Bakıya təzə varid olmuş Nəriman Nərimanov yoldaş onlar ilə bahəm işləmişdir, onların teatro yolunda çəkdikləri uqubətlərə, əzablara, onların şad və qəmli günlərinə şərakət *(şəriklik)* edib; həm müəllimlikdə, həm camaat xadimliyində və həm artistlikdə böyük ***(s. 24)*** şöhrətə nail olmuşdur. Nərimanov səhnədə neçə rollar yaradıb, əz an cümlə *(o cümlədən)* "Dağılan tifaq" pyesasında Nəcəf bəy rolunu ilk yaradan olmuşdur. Və onun kimi bu rolu oynayan indiyə qədər türk səhnəsində görünməmişdir.

Nəriman Nərimanov türk səhnəsinə neçə dənə əsər vermiş: " Nadanlıq", "Nadir şah", "Dilin bəlası" və Qoqolun məşhur "Revizor"unun tərcüməsi.

1904-cü ilə qədər bu şəxslər işləmiş, axırda türk teatrosu için yavaş-yavaş parlaq yolların açılmasını görüb, sair millətlər kimi bir dram cəmiyyəti təşkili niyyətinə düşürlər: çox əziyyət və məşəqqətdən sonra ancaq bir daimi "krujok" düzəltmək mümkün olur. Krujokun fəal üzvlərindən biri Cahangir Zeynalov olur ki, o vaxtda yaşının artıqlığına baxmayaraq artistliyə həvəslə girib ömrünün axırına qədər ***(s. 25)*** artistlikdə baqi qaldı.



**Əbdürrəhim bəy Haqverdov** *(Haqverdiyev)*

Teatro tərəqqi etdikcə teatronəvislər *(dramaturqlar)* də ortalığa çıxdılar. O vaxtın yazanlarından biri də Əbdürrəhim bəy Haqverdov idi.

Əbdürrəhim bəy Haqverdov 1892-ci ildən etibarən teatro yazmağa məşğul olmuş; yazdığı əsərlər: "Yeyərsən qaz ətini", "Dağılan tifaq","Bəxtsiz cavan", "Pəricadu", "Ağa Məhəmməd şah"dır. Tərcümələri: "Hamlet", "Ğəzavat", "Sultan Osman","Yahudilər", "Pepo" əlavə səkkiz dənə bir pərdə və iki pərdə əsərlər: "Millət dostları", "Kimdir müqəssir, "Ac həriflər, "Mirzə Fətəli Axundov", "Ağac kölgəsində, "Məşədi Qulam qiraət öyrənir", "Padşahın məhəbbəti", "Qırmızı qarı". 1901-ci ildən 1904-cü ilə qədər Bakıda olub və bu illərdə oynanan teatrolar hamısı onun rejissorluğu ilə getmişdir. 1902-ci ildə Haqverdov Qarabağdan kəndçi aşıqlar dəvət etməklə iki böyük konserti kəmali müvəffəqiyyətlə qoyaraq, əğz olunan pullar füqara məktəb uşaqlarına verilmişdir. 1911-ci ildə Mirzə Fətəli Axundovun təvəllüdündən yüz il keçməsi münasibəti ilə tərtib olan yubiley "Nicat" tərəfindən, bütün bütünə Haqverdova

mühəvvəl (*həsr*) olunmuşdur. Bu dövrənin teatro yazanlarının cümləsində həyatından götürülmüş teatro yazan və türk həyatına bələdiyyətini möhkəm sübut edən Süleyman bəy Axundovdur.



**Süleyman bəy Axundov**

***(s. 26)*** Axundovun pyesaları: "Tamahkar", "Laçın yuvası", "Eşq və intiqam, "Çərxi fələk", "Səadət zəhmətdədir", "Molla Nəsrəddin", "Gülpəri və Şahpəri", "Şeytan", "İki yol", "Şərq diplomatları", "Mərc".

1905-ci ilin inqilabından sonra türklərə cəmiyyətlər təşkili ixtiyarı verilir; və həmən il "Nicat maarif cəmiyyəti" təşkil olunur; və habelə Aktyorlar Ittifaqı əmələ gəlir, bu ittifaqda Nicat cəmiyyətinin bayrağı altında işləməyə başlayır. İttifaq əvvəl əldə bilet satmağı məne *(qadağa)* edir; biletlər zərər etsə də teatro kassasında satılmasına qərar verilir. Böyük bir repertuarla araya qirən teatronun günbəgün şöhrəti artmağa başlayır.



**Hüseyn Ərəblinski**

1906-cı ildə teatroda sənətkar artistlər, yəni artistlikdən məadə *(əlavə)* heç bir peşə ilə məşğul olmayan şəxslər araya çıxır: bu aktyorlar Hüseyn Ərəblinski ***(s. 27)*** *(Xələfov)*, Sidqi Ruhulla, Əbülfəth Vəli (Vəliyev)*dirlər*. Bu illərdə ilk dəfə olaraq türk səhnəsində Məhəmmməd Əmin Rəsulzadə tərəfindən yazılmış inqilabi əsər "Qaranlıqda işıqlar" oynanılır.

Zikr olan artistlərin ən müqtədiri və doğrudan da Azərbaycan səhnəsinin ziynəti Hüseyn Ərəblinski idi. Cismən, ruhən və vicdanən artist idi. Onun cavan ikən qətl edilməsi Azərbaycan səhnəsinə sağalmaz bir zərbə oldu. Ərəblinski neçə gözəl rollar yaradıb getdi. İndiki çox aktyorlar onun qoyduğu yol ilə gedirlər. Ərəblinski əvvəlinci türk aktyoru idi ki başına dəstə toplayıb Qafqazyaya səyahətə çıxmışdı. Tiflisdən, İrəvandan, Gəncədən, Lənkərandan, Hacıtərxandan *(Həştərxan)*, Volqadan Ərəblinskinin sədası gəlirdi. İlk yolu Ərəblinski açdı. Onun dalınca sair aktyorlar dəstəsi də yavaş-yavaş səyahətə çıxmağa başladılar. Bu yollarda ağır zəhmətlər və teatro yolunda ciddən *(həqiqətən)* çalışanların biri də Qulamrza Şərifzadə idi ki, həm gözəl aktyor və teatro fəalı idi və əlavə neçə pyesa Osmanlı türkçəsindən Azərbaycan şivəsinə təbdil edib *(çevirib)* səhnəmizə veribdir.

"Nicat" ilə bərabər ikinci maarif cəmiyyəti "Səfa" həmçinin teatro dəstəsi saxlayıb müvəffəqiyyətlə teatrolar qoyurdu. "Səfa"nın teatro yolunda işləyənlərinin ən fəalı şair Səməd Mənsur idi ki, neçə danə pyesa Azərbaycan səhnəsinə vermişdir: "Əhdə vəfa" *(təbdil)*, "Gavə" *(tərcümə)*, "Dərviş", "Cinayət", "Mükafat"... sərvətin təhsil *(əldə olunması)* və təsiri.

İndiki Türk Hökumət Teatrosunun rejissoru Abbasmirzə Şərifzadə Səməd Mənsurun təşviqilə artistliyə qədəm qoyub. Qabaqca "Səfa"da işləmiş, get-gedə qabiliyyəti sayəsində müqtədir bir aktyor mərtəbəsinə çatmışdır.

1908-ci ildə əvvəlinci dəfə olaraq türk səhnəsində opera peyda oldu. Bu əsər "Leyli və Məcnun" operası idi və yazanı iki qardaş Üzeyir və Ceyhun Hacıbəyovlar idi.

***(s. 28)*** Opera çox böyük müvəffəqiyyətlə keçdi və ondan sonra hər dəfə səhnədə qoyuldısa teatro salonu məmlu *(dolu)* oldu. Bu operanın camaat tərəfindən böylə müvəffəqiyyət qazanmağına ümdə səbəb əsər sahiblərinin ilk qədəmindən qərb musiqişünaslarına təqlid etməyib şərqi muğamatını, şərq musiqisini təbii halından dəyişməyib, fəqət səliqəyə və nizama salmasıdır.



**Uzeyir bəy Hacıbəyov**

Opera və operetkaların ortalığa çıxması teatrolarda ciddi dram və komediyaların geridə qalmasına bir növ səbəb oldu. Bu bir əfsusetməli həqiqətdir. Uzeyir Hacıbəyov tək bir Leyli-Məcnunu qardaşı ilə bahəm yazaraq, yerdə qalan neçə dənə opera və operetkaları kəndisi yalnızca yazmışdır. Hacıbəyovun əsəri - operalar: "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və "Xurşid Banu", "Rüstəm və Söhrab". Operetkalar: "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan".

***(s. 29)*** Peşəkar artistlərin sayı günü-gündən artdı və 1917-ci ildə xüsusi artistlər dəstəsi meydana çıxdı və altdakı il hətta "Antrepriza", yəni artistlər sinfinin icarə ilə xidmətini görürük.

1918-ci ildə Azərbaycan istiqlal alır və Müsavat hökuməti Mayılov teatrosunu Hökumət Teatrosu edirsə də, artistlərinə kəndi hallarında qalırlar.

Azərbaycanda Şura hökuməti bərpa olandan sonra bütün artistlər hökumət qulluğuna alınaraq hökumət aktyorları sanılırlar. Aralarında neçə nəfər müqtədir aktyorlar bu saat vardır.

Şura hökuməti zamanında neçə nəfər təzə teatro yazanlar çıxmış və gün-gündən teatronun repertuarını doldururlar. O cümlədən bu halda teatro aləmində artıq şöhrət qazanan Hüseyn Caviddir ki, neçə şairanə əsərlər səhnəyə vermişdir.

Hüseyn Cavidin əsərləri: "Şeyx Sənan", "İblis", "Şeyda", "Uçurum", "Afət", "Maral" və "Ana". Bu zamanənin yazıçılarından biri də Səid Ordubadidir ki, həmçinin neçə inqilabi əsərlər səhnəmizə vermişdir. O əsərlərin məşhurları "Dinçilər"dir.

Cavan yazıçılarımızdan gələcək üçün böyük ümidlər verən Cəfər Cabbarzadədir ki, neçə dənə pyesalar həmçinin teatromuza vermişdir.

13 noyabr 1921-ci ildə Bakıda Türk Azad Tənqid və Təbliğ Teatrosu açılır və bu yeni teatroda inqilabi əsərlər oynanmağa başlanır. Azərbaycanda ad qazanmış müsənniflər *(müəlliflər)* hamısı bu teatroya pyesa verməyi özlərinə fərz *(zəruri)* bilirlər. Axırda teatronun səhnəsində xüsusi bir *(istil)* əmələ gəlir və bu istil təzə yazıçılar törədir. O cümlədən Mürşid Səttar oğlu, Əhməd Qəmərli və indiyə qədər ancaq artistlikdə şöhrət qazanmış Mirzağa Əliyev və Hacı ağa Abbasov bu teatro üçün pyesalar yazıb müvəffəqiyyət qazanırlar. Tənqid-təbliğ Teatrosuna ən ziyadə əsər verənlər: Süleyman Axundov və Səid Ordubadidir. Bu teatronun başında sınanmış ***(s. 30)*** aktyorlarmızdan Hacı Ağa Abbasov qoyulmuş ki, teatronun ilk günündən orada işləyir və ona biz Türk Tənqid-təbliğ Teatrosunun yaradıcısı desək səhv etməmişik. Hacı Ağa Abbasov Tənqid-təbliğ Teatrosuna bu əsərləri vermişdir: "Qırmızı əsgər oğluma", "Sabirin məhkəməsi", "Ağaməhəmməd şah Qacar yaxud Molla Pənah Qarabağda", "Rafət paşanın İstanbula gəlməsi" və "İnqilab şərarələri *(qığılcımları)*".



**Hacı Ağa Abbasov**

Tənqid-təbliğ Teatrosunun müqtədir artistləri Mirzağa Əliyev, Əhməd Qəmərli, və teatronun qiymətli rejissoru Süheyli hesab olunurlar.

Bunlardan Mirzağa Əliyev Cahangir Zeynalovdan sonra türk səhnəsinin ən qoca aktyoru və türk teatropərəstlərinin ən sevgili Mirzağasıdır ki, 1902-ci sənədən indiyə qədər türk səhnəsində işləyir. Mirzağanın böyük ***(s. 31)*** fəaliyyəti 1906-cı ildən bina olunmuş "Hümmət" truppasında olmuşdur ki, bu truppa əxz etdiyi paraları inqilab yolunda məsrəf edirdi.



**Əli Əkbər Süheyli**



**Mirzağa Əliyev**

Mirzağa Əliyev bu truppada olan zaman "Molla Nəsrəddin" məcmuəsinin müdiri Cəlil Məmmədquluzadə "Ölülər" adlı pyesanı meydana çıxarır; bu pyesada keyfli İsgəndər rolunu ilk dəfə oynayan Mirzağa Əliyev olur ki, hələ rolun indi də yaradıcısı hesab olunur. 1912-ci sənədə çar hökuməti əleyhinə səhnədə tənqidanə kuplet oxuduğuna görə tutulub Hacı Tərxana nəfy *(sürgün)* olunur. Burada həmçinin bikar oturmayıb, orada məxfi sifətində yaşayan Nəriman Nərimanovun köməyi ilə tatar cavanları ilə tanış olub onlar ilə teatrolar oynamışdır. 1913-cü ildə yenə vətəninə qayıdaraq səhnəmizi müzəyyən etmədədir *(bəzəmədədir).* Təndiq-təbliğ Teatrosuna neçə pyesə veribdir: "Vəzirin gözləri", "Məşədi evlənir", "Orda elə, burda belə", "Telefon bəlası". Bu pyesalar bu saat səhnədə müvəffəqiyyətlə oynanılmaqdadır.

**Türk səhnəsində türk qadını**



**Mərziyə xanım Davudzadə**
***Türk Hökumət Teatrosu***

**Türk səhnəsində türk qadını**



**Asiyə xanım Rzazadə**
***Türk Hökumət Teatrosu***

**Türk səhnəsində türk qadını**



**Əzizə xanım Yusifzadə**
**Tənqid və Təbliğ Teatrosu**

**Türk səhnəsində türk qadını**



**Sona xanım Yusifzadə**
**Tənqid və Təbliğ Teatrosu**

*(s. 36)* Əhməd Qəmərli həmçinin neçə dənə pyesa Tənqid-təbliğ Teatrosuna vermişdir: "Qarınqulular", "Evlənmək", "Loğman" və sairə.

Qədim əyyamda türk səhnəsində övrət rollarını ifa edənlər həmişə kişilər olardı. Sonra övrət rolları üçün qeyri-müsəlman övrətləri dəvət olunurdu. Hal-hazırda böylə artistikalarımız neçə nəfər vardır ki, çox gözəl qaydada rollarını ifa edirlər. İnqilabdan sonra türk xanımları yavaş-yavaş türk səhnəsinə qədəm qoydular. Bu halda səhnəmizdə neçə nəfər türk xanımları oynayırlar. Ümidvarız ki, gəldikcə bunların sayı artacaqdır. Əvvəlinci dəfə türk xanımlarını səhnəyə cəlb edən Türk Tənqid-təbliğ Teatrosudur ki, bundan dolayı şayan təşəkkürdür.

**Yubiley komitəsinin təhrirat *(redaksiya)* heyəti:**

**Sədr** – Əbdürrəhim bəy Haqverdov

**Üzvlər**

- Doktor Tağı Şahbazi
- Nəcəf bəy Vəzirov
- Alma xanım Safrazyan
- Sultan Məcid Qənizadə
- Süleyman bəy Axundov
- Əli İskəndər Cəfərov
- Səməd Mənsur